RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 111 (8427) CÜMƏ, 12 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib.

Bax: səh. 2

## "Azərbaycan xalqının Rusiya xalqı ilə həmrəy olduğunu bildirirəm"



### Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç.

Sizi dövlət bayramınız - Rusiya Günü münasibətilə ürəkdən təbrik edirəm.

Rusiya Federasiyası ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrdə inkişaf, tərəqqi və dəyişikliklər yolunda inamla irəliləyir. Fəal xarici siyasət kursu Sizin ölkənizin dünya arenasında mövqeyinin gücləndirilməsi üçün etibarlı təməldir.

Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksək səviyyədə olmasını böyük məmnuniyyətlə qeyd etmək istəyirəm. Xalqlarımız arasında çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri çoxşaxəli Azərbaycan-Rusiya əlaqələrinin və strateji tərəfdaşlığının daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün möhkəm bünövrədir.

Əminəm ki, ikitərəfli münasibətlərin gündəliyindəki məsələlərin bütün spektrinin uğurla reallaşdırılması ölkələrimiz arasında qarşılıqlı faydalı və tammiqyaslı əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açacaq.

Fürsətdən istifadə edib koronavirus pandemiyasının nəticələrinin aradan qaldırıldığı dövrdə Azərbaycan xalqının Rusiya xalqı ilə həmrəy olduğunu bildirirəm.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, uğurlar, bütün rusiyalılara firavanlıq və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 9 iyun 2020-ci il*



# İlham Əliyevin qlobal böhran şəraitində uğur modeli

## Azərbaycanın pandemiya ilə mübarizə planlarını öz hesabına həyata keçirməsi Prezidentin siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir

Dünyanı çətin sınaq qarşısında qoyan pandemiya getdikcə böyük ölkələrin iqtisadiyyatına daha ciddi təsir göstərməkdədir. Yəni koronavirus bəlası yalnız can almır, sosial-iqtisadi problemləri də dərinləşdirir. Mütəxəssislər qeyd edirlər ki, bu il dünya iqtisadiyyatı 4 faiz azalacaq.

Pandemiyanın iqtisadiyyata mənfi təsirini əvvəlcədən proqnozlaşdıran dövlətlər, siyasi liderlər məhz bu problemdən az itki ilə qurtulmaq üçün fərqli yanaşma tərzini və öz metodlarını ortaya qoydular. Əvvəlcədən düşünülmüş proqramların, layihələrin icrası təbii ki, effektiv nəticələr verməli idi. Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycan da həmin dövlətlər sırasındadır. Koronavirus hələ qlobal xarakter almadan qabaqlayıcı tədbirlər görən Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində pandemiyanın Azərbaycan iqtisadiyyatına mənfi təsirləri minimuma endirildi.

### Pandemiya dövründə nümunəvi islahatlar

Qısa zaman ərzində cənab İlham Əliyevin mütərəqqi islahatları ilə kölgə iqtisadiyyatına qarşı ciddi tədbirlər görüldü, şəffaflıq təmin edildi və dövlət orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqi təmin olundu, dövlət xidmətləri sahəsində mərkəzləşdirilmiş elektron məlumat sistemi yaradıldı.

Dövlət başçısının apardığı islahatlar və tədbirlər, ilk növbədə, ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına nail olmaq idi və pandemiya dövründə bu addımlar öz önəmini göstərdi. Həmçinin pandemiya dövründə ölkədə heç bir sosial layihə təxirə salınmadan icra edildi. Ölkədə yaradılan müəssisələr, yenilənən yol infrastrukturu, açılan yeni obyektlər və reallaşan sosial layihələr bunu bir daha təsdiqləyir.

Bununla yanaşı, pandemiya ilə mübarizə üçün həyata keçirilən layihələrin də xüsusi əhəmiyyəti oldu. Belə ki, qısa müddətdə Bakıda "Yeni klinika" tibb müəssisəsi, "Bakı Tekstil Fabriki" tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi, modul tipli 4 xəstəxana, "Gilan Tekstil Park"ın tibbi maska fabriki, qoruyucu kombinezonların istehsalı müəssisəsi tikildi.

Pandemiya zamanı Prezidentin keçirdiyi müşavirələr, vətəndaşlara ayrılan sosial yardım, vergi güzəştləri, sahibkarlara, sosial həssas qruplara dəstək və atılan digər addımlar Azərbaycan nümunəsinin başlıca göstəricisidir.

Bir sözlə, koronavirusa qarşı aparılan mübarizədə əldə edilən müsbət və inamlı nəticələr onu sübuta yetirdi ki, Azərbaycan dövləti yalnız öz mənbələri hesabına pandemiya ilə mübarizə üzrə təsirli tədbirlər planını həyata keçirir. Bu isə hər ölkənin bacara biləcəyi məsələ deyil.

### Postpandemiya dövründə Azərbaycan iqtisadiyyatı 3 faiz artacaq

Azərbaycan həm daxildə, həm də xaricdə pandemiya ilə bağlı həyata keçirilən mübarizə tədbirlərinə əvəzsiz töhfələr verdi. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar ianə ayırdı.

Ardı 3-cü səh.

## MİLLİ QURTULUŞ - 27

## Davamlı inkişafı təmin edən islahatlar kursunun banisi



Tarix boyu hər bir xalqın davamlı sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxaraq sabit dövlətçilik ənənələri formalaşdırması milli lider amili ilə sıx bağlı olmuşdur.

Bugünün özündə də dünyanın bir sıra nüfuzlu dövlətləri məhz öz liderlərinin müəyyənləşdirdiyi mütərəqqi strategiya əsasında irəliləyir, gələcək perspektivlərini bu uğur yolundan kənarda təsəvvür etmirlər. Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət, dərin zəkası, fitri idarəçilik keyfiyyətləri və xarizması ilə Ümummilli Liderlik zirvəsinə yüksəlmiş Heydər Əliyev də müstəqil respublkamızın milli inkişaf modelinin banisi kimi bu gün böyük ehtiramla xatırlanır.

Müstəqil Azərbaycanın bu gün sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində böyük müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilən Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafının yeni mərhələsinə qədəm qoyaraq tez bir zamanda keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrilmiş, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilmişdir.

Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri həmin illərdə məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Sənayenin inkişafını müəyyənləşdirən tamamilə yeni sahələr meydana gəlmiş, müxtəlif elektrik cihazları istehsal edən zavodlar inşa olunmuşdur. Ümumilikdə 1970-1985-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutur, burada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi.

Həyata keçirilən islahatlar sayəsində Azərbaycan həmin illərdə aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrilmişdi. Ağır sənaye ilə yanaşı, yüngül sənaye müəssisələrinin də açılmasına xüsusi diqqət göstərilir, yeni-yeni tikiş və toxuculuq fabrikləri inşa olunurdu. Müdrik rəhbərin səyləri nəticəsində respublikamız eyni zamanda keçmiş ittifaq miqyasında mühüm kənd təsərrüfatı respublikası, qabaqcıl pambıqçılıq və üzümçülük diyarı kimi məşhurlaşmışdı. Həmin dövrdə keçmiş ittifaq miqyasında istehsal olunan üzümün 27, pambıq mahlıcının 9,2 faizi respublikamızın payına düşürdü.

Ardı 7-ci səh.

## Azərbaycan bütün parametrlər üzrə liderlik göstərib

### İlham Əliyevin rəhbərliyi altında ölkəmiz qlobal pandemiyaya qarşı effektiv mübarizə aparır

Aylardır dünyanı bürüyən koronavirus, COVID-19 infeksiyası hələ də sovuşmayıb və bəşəriyyəti təhdid etməkdə davam edir. Qurtuluş peyvəndinin isə yaxın müddətdə tapılacağı ehtimalı yoxdur. Buna görədir ki, hələlik "taclı" bəla yoluxma sayını və aldığı canları günbəgün artırmaqdadır. Super dövlətləri belə qarşısında diz çökdürür, iqtisadiyyatını, səhiyyəsini alt-üst edərək çarəsizliyə yuvarladır.

Virusa qalib gəlməyin isə məhz dövlət və vətəndaş həmrəyliyindən asılı olduğunu dünyanın bir çox ölkələrində rast gəlinən acı həqiqətlər də təsdiqlədi. Buna görədir ki, koronavirusa zamanında ciddi yanaşmayan ölkələrdə sonradan görülən tədbirlər, alınan qadağa qərarları elə də effektiv olmadı və bu təsir gücünün işlək olmamasında vətəndaşların da həmin qaydalara uymamasının böyük rolu oldu. Təəssüf ki, nəticə insan faciələri ilə müşayiət edildi... Buna görə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ölkələrdə COVID-19-a yoluxmanın sayını azaltmaq üçün bir sıra fundamental addımların həyata keçirilməsini vacib hesab edir. Təkliflər sırasında dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, ictimai toplantıların dayandırılması, test, izolyasiya və karantinin həyata keçirilməsi üçün dövlət qurumlarının yeni şəraitə uyğunlaşdırılması, səhiyyə qurumlarının və ön sırada olan işçilərin müvafiq resurslarla təmin edilməsi durur. Həmçinin əhaliyə bu xəstəliyin ciddiliyinin izah olunması, əl gigiyenası, öskürək etiketi və sosial məsafənin vacibliyinin izah edilməsi, bütün şübhəlilərin təcrid edilməsi, pandemiyadan ən çox zərər çəkmiş insanlara iqtisadi yardımın göstərilməsi, dövlətlər arasında həmrəyliyin gücləndirilməsi, yoluxma halları və nəzarət tədbirləri barədə ÜST ilə operativ şəkildə informasiyanın paylaşılması kimi məsələlər də bura aiddir.

### Zamanında görülən tədbirlər

Azərbaycanda isə sadalanan təkliflər hələ COVID-19 infeksiyasının yayıldığı ilk zamandan etibarən tətbiq olunmağa başlanmış, real vəziyyətə əsaslanan tədbirlər görülmüş, virusun yayılmasının qarşısının alınması istiqamətində vacib addımlar atılmışdı. Hələ fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Ardı 8-ci səh.

◆ TANAP-ın istifadəyə verilməsindən 2 il keçir ◆



## Azərbaycanın və Türkiyənin birgə layihəsindən bütün Avrasiya faydalanacaq

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Türkiyənin Əskişəhər şəhərində 2018-ci il iyunun 12-də istifadəyə verilib. Bu, Azərbaycanın və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi ilə həyata keçirilmiş unikal bir layihədir.

Lakin TANAP təkcə iki ölkə və region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün mühüm əhəmiyyəti olan kəmərdir. Çünki Azərbaycan qazını Türkiyənin ərazisindən keçərək Avropaya TANAP çatdıracaq.

Avropanın bu qaza böyük ehtiyacı var. Ümumiyyətlə, bütün dünyada qaza tələbat ildən-ilə artır.

Ardı 9-cu səh.

## Yüksək kredit reytinqi Azərbaycana dünyanın aparıcı bank-maliyyə institutları ilə səmərəli əməkdaşlıq imkanı verir

Dünyanın aparıcı maliyyə-kredit institutları pandemiya dövründə də Azərbaycanla əməkdaşlığa üstünlük verərək, onu yeni mərhələyə çıxarmaq üçün müraciətlər edirlər. Bu, ölkəmizin, dövlətimizin başçısının həm nüfuzunun, həm də Azərbaycanın etibarlı tərəfdaş olmasının göstəricisidir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyir ki, hətta pandemiya dövründə nüfuzlu bankların, maliyyə qurumlarının ölkəmizə qarşılıqlı səmərə verən əməkdaşlıq üçün müraciət etməsi bir çox reallıqlardan xəbər verir.

Bu ilin əvvəlinə birbaşa xarici dövlət borcumuzun 8,32 milyard, dövlət müəssisələri tərəfindən cəlb edilmiş xarici borclara verilmiş dövlət zəmanətləri üzrə şərti öhdəliklərin 771 milyon, ümumilikdə xarici dövlət borcumuzun 9,1 milyard dollar olduğunu deyən icraçı direktor bildirib ki, prioritet hesab olunan layihələr maliyyələşdirildikdən sonra xarici dövlət borcumuzun ÜDM-ə nisbətinin azalan tendensiya üzrə davam edəcəyini söyləmək olar: "Hətta dövlətin borc strategiyasında bildirilir ki, xarici dövlət borcu üzrə geri qaytarılan öhdəliklərin cəlb edilən yeni borclardan çox olması ilə tədricən bu göstəricinin azalaraq 2025-ci ildə 12 faizə düşəcəyi proqnozlaşdırılır". İndiki halda Azərbaycanın xarici borc cəlb etməsi üçün imkanlarının geniş olduğunu deyən iqtisadçının sözlərinə görə, bizdə xarici dövlət borcunun ÜDM-ə nisbəti 17 faiz ətrafındadır ki, bu da dünyada ən yaxşı vəziyyətdə olan onluğun sırasında yer almağımızı göstərir: "Müqayisə üçün deyim ki, bu göstərici üzrə dünyada lider Yaponiyadır - 238 faiz. Bizim bölgədə isə ölkələr üzrə xarici dövlət borcu ÜDM-in orta hesabla 40 faizindən çoxdur. Bu gün COVID-19 pandemiyası səbəbindən BVF, Dünya Bankı, AYİB, AİB, Böyük 20-lik və s. qurumlara borc üçün müraciət edən ölkələrin sayı 150-yə çatıb, artıq müflis elan edilən ölkələr var. Dünyada yeni borc dövrü başlayır. Azərbaycanda isə ötən il dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər 6,2 faiz olmuşdur ki, bu da borc strategiyasında nəzərdə tutulan 15 faizdən əhəmiyyətli dərəcədə aşağıdır. Dövlət büdcəsində dövlət borcuna və öhdəliklərinə xidmət üçün yaradılan Təminat Fondu ciddi bir institusional altyapıdır".

Ardı 9-cu səh.

# Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, "Əhmədli" yarımstansiyası tamamilə yenidən qurulub, buradakı transformatorlar yeniləri ilə əvəzlənib, yarımstansiyanın bütün qurğuları müasir səviyyəyə çatdırılıb. Yenidənqurma işləri zamanı yarımstansiyanın idarəetmə binası da inşa olunub. Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalini, sosial, iqtisadi və sənaye müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.









Prezident İlham Əliyev "Əhmədli" yarımstansiyasını işə saldı.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, müasir avadanlıq və qurğuların quraşdırılması yarımstansiyanın səmərəliliyini və gücünü artırıb. Burada 3 köhnə transformatorun daha yeni transformatorlarla əvəzlənməsi yarımstansiyanın ümumi gücünü 166 mVA-dan 240 mVA-ya çatdırıb. Yarımstansiyada aparılan yenidənqurma işləri istehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün xüsusi rejimdə - onun fəaliyyəti dayandırılmadan həyata keçirilib.

Ümumilikdə, son iki ildə Prezident İlham Əliyevin tapşırığı ilə elektrik stansiyaları ilə yanaşı, ötürücü şəbəkədə də geniş yenidənqurma, təmir və bərpa işləri həyata keçirilir. Hazırlanan Reabilitasiya Proqramı çərçivəsində bu dövrdə 1 ədəd 500, 2 ədəd 330, 2 ədəd 220 və 10 ədəd 110 kV-luq yarımstansiya yenidən qurulub, 12 yarımstansiyada təmir-bərpa işləri həyata keçirilib.

**Prezident İlham ƏLİYEV:** Burada böyük yaşayış massivləri yerləşir, bəs bu köhnə yarımstansiya bütün bu obyektləri necə qidalandırırdı?

**Baba RZAYEV:** Bu, qidalandırmırdı.

**Prezident İlham ƏLİYEV:** Yəni fasilələrlə verilirdi?

**Baba RZAYEV:** Bəli, çox pis idi, həmişə fasilə buradan olurdu. "Əhmədli" bir nömrəli qəza mənbəyi idi.

**Prezident İlham ƏLİYEV:** Əhmədlidə, Günəşlidə qəzalar tez-tez olurdu. İndi qəzalar olmamalıdır.

**Baba RZAYEV:** İnşallah, heç bir qəza olmayacaq.

**Prezident İlham ƏLİYEV:** İstifadəyə verilən bu yarımstansiya 300 min əhalini əhatə edəcək. Həmçinin burada bir çox sənaye müəssisələri, ictimai binalar var. Ona görə bu yarımstansiyanın çox böyük əhəmiyyəti var.

**Baba RZAYEV:** Cənab Prezident, "Ağ şəhər" böyük bir layihədir. Orada 110 kilovoltluq 3 böyük yarımstansiya var, onlardan ikisi buradan qidalanır.

**Prezident İlham ƏLİYEV:** Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb, həm generasiya gücləri artıb, eyni zamanda siz itirilmiş gücləri bərpa edirsiniz. Yaxın zamanlarda Mingəçevirdəki İstilik Elektrik Stansiyasının da yenidənqurmadan sonra açılışını edəcəyik. Əslində, bu, yenidən tikilmiş 2400 meqavat gücündə elektrik stansiyasıdır və yarımstansiyaların tikintisi. Məhz buna görə bu gün enerji təminatı ilə dayanıqlılıq əmsalına görə Azərbaycan dünya miqyasında ikinci yerdədir. Özü də bunu biz demirik, Davos Ümumdünya İqtisadi Forumu deyir. Yəni biz bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq və işlər davam edir. Mənim rayonlara səfərlərim çərçivəsində də yeni yarımstansiyalar açılır. Bu yaxınlarda Tərtərdə, Ağcabədidə iki yarımstansiya açılıbdır. İndi "Əhmədli" yarımstansiyası, "8-ci Kilometr", "Xırdalan", "Buzovna", "Ağ şəhər".

**Baba RZAYEV:** Cənab Prezident, Sizin birbaşa tapşırığınızla son bir ildə ancaq Abşeron regionunda 12 yarımstansiya, o cümlədən "Görədil" işə salınıb.

**Prezident İlham ƏLİYEV:** Bizim bütün elektrik təsərrüfatımız tamamilə yenilənməli və ən yüksək müasir standartlara cavab verməlidir. Bir sıra layihələr başa çatıb, ancaq hələ görüləsi işlər çoxdur, onları da ardıcıllıqla icra edəcəyik.

**Baba RZAYEV:** Çox sağ olun, cənab Prezident. Sizi əmin edirəm ki, energetika sahəsinin inkişafı ilə bağlı müəyyənləşdirdiyiniz strategiyanı, qarşıya qoyduğunuz vəzifələri energetiklərimiz uğurla yerinə yetirəcəklər. Sizə təşəkkür edirik.

Cənab Prezident, harada ki, ərazi imkan verir, 110, 220, 330 kilovoltluq yarımstansiyaları ən müasir texnologiyalar əsasında bu cür açıq paylayıcı qurğularla təmin edirik. Ancaq "Böyükşor" yarımstansiyasını qapalı "GİS"lə inşa etmişik. Özü də bu yarımstansiyaların gücü 80 və 240 meqavoltamperdir.

❖ ❖ ❖

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, ölkəmizdə elektrik enerjisi təsərrüfatının yenidən qurulması, bu sahədə ən son innovativ həllərin tətbiqi və nəticə etibarilə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində böyük işlər görülüb. Həyata keçirilən işlərin tərkib hissəsi kimi çox sayda mövcud yarımstansiya müasir səviyyədə yenidən qurulub. Onlardan biri də 110/35/10 kV-luq "Əhmədli" yarımstansiyasıdır.





## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına öz adımdan və İrlandiya xalqı adından səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu fürsətdən istifadə edərək, İrlandiya belə bir həssas dönəmdə planetimizin bütün vətəndaşları üçün həyati vacib məsələlərdə təhlükəsizliyin təminində önəm kəsb edən qlobal iqtisadi imkanlara nail olunması, həmçinin iqlim dəyişmələri ilə bağlı öhdəliklərimizə sadiqlik nümayiş etdirilməsi və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Azərbaycanla həmrəyliyini ifadə edir.

Qoy gələcək günlər Azərbaycan xalqına sülh, firavanlıq və səadət gətirsin!

*Hörmətlə,*

***Maykl HİGGİNS,***
***İrlandiyanın Prezidenti***

* * *

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sloveniya xalqı adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edir, ölkənizin hərtərəfli inkişafı və rifahı ilə bağlı ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

İcazə verin, dünyanın COVID-19 pandemiyası ilə üzləşdiyi bu çətin dönəmdə Azərbaycan xalqı ilə həmrəy olduğumuzu bildirim. Pandemiyaya qarşı apardığımız birgə mübarizə beynəlxalq arenada əməkdaşlıq və həmrəyliyin əhəmiyyətini bir daha təsdiq edir.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlər qarşılıqlı maraqlarımız naminə dostluq mühitində gələcəkdə də inkişaf edəcək, regionda və onun hüdudlarından kənarda sülhün, sabitliyin və anlaşmanın möhkəmlənməsinə töhfə verəcəkdir.

Hörmətli cənab Prezident, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Borut PAHOR,***
***Sloveniya Respublikasının Prezidenti***

## Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Binəqədi rayonunun Biləcəri, M.Ə.Rəsulzadə və Xocəsən qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 2,85 milyon (iki milyon səkkiz yüz əlli min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2020-ci il*

## Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2020-ci il*

## Azərbaycanda koronavirusa daha 352 yoluxma faktı qeydə alınıb, 210 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 352 yoluxma faktı qeydə alınıb, 210 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 8882 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 4930 nəfər müalicə olunaraq sağalıb, 108 nəfər vəfat edib. Aktiv xəstə sayı 3844 nəfərdir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 362 min 654 test aparılıb. Dünənki test sayı isə 6622-dir.

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# “Sizi ona görə çox istəyirik ki, sözünüzlə əməliniz vəhdət təşkil edir”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Şəmkir rayonunun Bayramlı kəndindən **Mətanət Quliyeva** yazır: “Möhtərəm cənab Prezident, həyatımı dəyişən xəbəri və o günü xatırladıqca ilahi ədalətin var olduğuna bütün ruhumla təkrar-təkrar inanıram. Həyat qayğılarının hökm sürdüyü və ömrümün eniş dövründə, üstəlik, bütün bunlardan əlavə, sağlamlığımın mənimlə savaşa qalxdığı bir vaxtda bir xəbər oxudum: Prezident mükafatçısı olmuşam. Həmin anı və o anın yaşatdığı hissləri ifadə etməyə nə mənim, nə də qələmimin gücü çatar. Təkcə onu deyim ki, o xəbər yaralarıma məlhəm, yorğunluqdan bükülən dizlərimə güc oldu, məni həyata bağladı, mübarizəyə səslədi. Bütün bunlara görə Sizə minnətdaram, cənab Prezident! Əlilliyi olan şəxslər üçün yaratdığınız çoxlu imkanlar və bu istiqamətdə aparılan işlər bir daha imkan yaradır ki, bu qəbildən olan hər bir şəxs cəmiyyətdə öz yerini tutsun. Ürəklə deyə bilərəm ki, bu gün mənim kimi gənclərin hədəflərinə doğru addımlaması üçün heç bir əngəl yoxdur. Bizim Sizə, Sizin qayğınıza hər zaman ehtiyacımız var”.

Xocalı rayonundan məcburi köçkün **Vaqif Behbudov:** “Hörmətli cənab Prezident, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu müasir Azərbaycanımız gündən-günə inkişaf edir. Bu inkişaf məhz Sizin zəhmətinizin, siyasi iradənizin sayəsində gerçəkləşir. Mən şəhid oğluyam, atamın şəhid olmasından üç ay sonra dünyaya gəlmişəm. Atamın adını mənə qoyublar və bununla fəxr edirəm. Həm də ona görə fəxr edirəm ki, dünyanın heç bir ölkəsində şəhid ailəsinə bu qədər diqqət və qayğı göstərilmir. Bu qayğını Sizin yürütdüyünüz uğurlu sosial siyasətin məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Şəhid ailələrinin hər birinə göstərilən diqqət və qayğı bizlərdə qürur, fərəh hissi yaradır. Siz çıxışlarınızda hər bir şəhidin və onun ailəsinin Azərbaycan dövləti və xalqı üçün son dərəcə dəyərli olduğunu qeyd edirsiniz. Sizin şəhid ailələri ilə görüşləriniz bu qayğının tükənməz olduğunu göstərir. Buna görə də bizim - şəhid ailələrinin yaşayışı ildən-ilə yaxşılaşır. Biz şəhid ailələrinin problemlərinin aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən məmnunluq hissi duyuruq və əhatə olunduğumuz qayğıya görə Sizə minnətdarlığımızı bildiririk”.

Sumqayıt şəhərindən **Rasim Məmmədov** və **Səidə Məmmədova** yazırlar: “Zati-aliləri cənab Prezident, Sizin rəhbərliyinizlə korrupsiya hallarına qarşı həyata keçirilən sərt tədbirlər bizi çox sevindirir. Bu işləri diqqətlə seyr edir, Ulu Öndər Heydər Əliyevin vaxtında olduğu kimi, sağlam abhavanın yarandığını duyuruq. Əsas isə odur ki, Siz bu yolda qətiyyətli və dönməzsiniz, eynilə atanız kimi... Sizin bu iradəniz bir çoxlarının yuxusuna haram qatıb. İstər xaricdə, istərsə də daxildəki düşmənlərimiz Azərbaycanın bu uğurlarını həzm edə bilmirlər, edə də bilməzlər. Çünki Sizin rəhbərliyinizlə qazanılan uğurlar onların boğazına sanki bir sümük kimi tıxanıb. Bilin ki, bütün xalq Sizə inanır. Bu xalq Ümummilli Liderimiz Heydər Əliyevin bir kəlməsi ilə 1994-1995-ci illərdə Azadlıq meydanına toplaşıb onunla bir olduğunu bütün dünyaya göstərdiyi kimi, Sizin də bir kəlmənizlə meydana çıxıb arxanızca getməyə hər zaman hazırdır. Allah Sizi qorusun!”



Bakının Nərimanov rayonundan **Füzuli Hacıyev:** “Çox hörmətli cənab Prezident, mən Sizin “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında 2020-ci il 8 iyun tarixli sərəncamınızı oxuyarkən qəlbim çox böyük fərəh və qürur hissi ilə doldu. Çünki nəinki Qafqazda və Azərbaycanda, habelə bütün dünyada çox nadir tarixi mədəniyyət nümunəsinə yeni həyat vermək ancaq Sizin kimi torpağını, tarixini sevən böyük şəxsiyyətlərə qismət olur. Möhtərəm cənab Prezident, Beşbarmaq dağı çox böyük bir tariximizin möhtəşəm bir parçasıdır. Bu müqəddəs məkanda Musa və Xızır peyğəmbərlərin görüşdüyü yer, eramızın əvvəllərində tikilmiş Beşbarmaq səddi və saymaqla bitməyən digər tarixi abidələr yatır. Sizə çox böyük minnətdarlığımı bildirirəm, əziz Prezidentim! Tarixə münasibətin möhtəşəm nümunəsi budur”.

Mingəçevir şəhərindən **Əvəz Haqverdiyev:** “Möhtərəm Prezident, Ümummilli Liderimiz Heydər Əliyevin daimi diqqət və qayğısı ilə inkişaf edən Mingəçevir bu gün Sizin həyata keçirdiyiniz siyasət nəticəsində özünün yüksəliş dövrünü yaşayır. Ölkə energetikasının flaqmanı olan “Azərbaycan” İES-in yenidən qurulması barədə verdiyiniz tapşırıq uğurla yerinə yetirilir. Artıq əsaslı təmir və bərpa işləri yekunlaşmaq üzrədir. “Azərbaycan” İES-in indiki görkəmi, orada aparılan işlər təqdirəlayiqdir. Aparılan bu işlərə görə, cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun!”

Tərtər rayonundan **Emin Pənahov:** “Cənab Prezident, rayonumuzda tərtərli gənclərin və idmançıların uzun illərdən bəri həsrətində olduğu möhtəşəm Olimpiya İdman Kompleksinin tikilib istifadəyə verilməsi bizə sonsuz sevinc hissləri yaşatdı. Bu Olimpiya İdman Kompleksi tərtərli gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmana marağının artmasında mühüm rol oynayacaq. Kompleksdə olan müxtəlif idman yarışlarının keçirilməsi üçün universal zal, üzgüçülük hovuzu, sauna, güləş, boks, basketbol və trenajor zalları, tennis kortu gənclərimizin ölkə daxilində və beynəlxalq arenada keçirilən idman yarışlarında uğur qazanmalarına zəmin yaradır. Biz idman yarışlarına evsahibliyi də edəcəyik, idmanın kütləviliyini təmin edərək, gənclərimizin fiziki və mənəvi sağlamlığını qoruyacağıq. Cənab Prezident, cəbhə bölgəsində yaşayan gənclərə göstərdiyiniz diqqət və qayğıya görə Tərtər rayonunun çoxsaylı gəncləri və idmançıları adından Sizə minnətdarlığımızı bildiririk. Gənclərimiz bütün sahələrdə Sizin diqqət və qayğınızı hiss edir və Sizi dəstəkləyirlər. Tanrı Sizi qorusun!”

Bakı şəhərinin Xəzər rayonundan **Səxavət Məcnunov:** “Hörmətli cənab Prezident, Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya dövlətləri arasında nüfuzunun artması istiqamətində gördüyünüz işlər, apardığınız daxili və xarici siyasət, habelə ölkədaxili genişmiqyaslı islahatlar xalqımız tərəfindən minnətdarlıqla qarşılanır. Dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Sizin apardığınız tədbirlərin nəticəsində ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısının alınması ilə bağlı verdiyiniz tapşırıqlar ölkə əhalisi tərəfindən müsbət qarşılanır və layiqincə yerinə yetirilir. Görülən bütün bu işlər Sizin tərəfinizdən vətəndaşlara göstərilən diqqət və qayğıdan irəli gəlir. Bir hərbçi olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə tezliklə torpaqlarımız düşmən tapdağından azad olacaq və dünyanı çənginə alan bu bəladan da tezliklə qurtulacağıq. Sizin sayənizdə Böyük Vətən müharibəsi iştirakçılarının ailələrinə verilən birdəfəlik müavinətə görə Sizə təşəkkürümüzü bildiririk. Ölkə vətəndaşlarının sağlamlığını, rifahını, ölkəmizin güclü iqtisadiyyata, ordumuzun dövlətlər arasında nüfuzlu yerə yüksəlməsində gördüyünüz işlərə görə Xəzər rayonunun sakinləri, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı adından Sizə və ailənizə xoşbəxtlik, cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Biz həmişə Sizinləyik!”

Mingəçevir şəhərindən **Humay Baxışova, Tural Kərimov** və **Kamal Nəcəfli** yazırlar: “Hörmətli cənab Prezident, Sizin tapşırıq və tövsiyələrinizə uyğun olaraq “Azərbaycan” İstilik Elektrik Stansiyasında aparılan yenidənqurma işləri uğurla davam etdirilir. Sizin rəhbərliyinizlə ölkəmizdə energetika sənayesi sürətlə inkişaf edərək, yeni mərhələyə qədəm qoyub. Azərbaycan enerjini ixrac edən ölkəyə çevrilib. Dövlətimizin davamlı inkişafının göstəricisi olaraq görülən işlər biz gəncləri sevindirir və qürurlandırır. Cənab Prezident, Mingəçevir gəncləri gördüyünüz misilsiz işləri bütünlüklə dəstəkləyirlər. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirir, uğurla irəlilədiyiniz yolda yeni müvəffəqiyyətlər arzulayırıq. Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, işlərinizdə nailiyyətlər diləyirik”.

Sabirabad rayonunun Xəlfəli kəndindən **Yavər Şükürov:** “Azərbaycan xalqının sevimli Prezidenti, cənab Ali Baş Komandan, bu ağır dövrdə Sizin vaxtında atdığınız addımlar, xalqın sağlamlığının qorunmasına yönəlmiş siyasət sayəsində koronavirus bəlasının caynağından tezliklə xilas olacağımıza böyük inam bəsləyirik. Hər bir işinizə görə şəxsən öz adımdan və ailəm adından Sizə minnətdarlığımızı bildirirəm. Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq Siz daim xalqın yanındasınız. Bəzi şəxslər özlərini xalqa canıyanan kimi göstərməyə çalışsalar da, əslində, xalqımız onlardan heç vaxt bir xeyir görməyib. Sizi ona görə çox istəyirik ki, sözünüzlə əməliniz vəhdət təşkil edir. Fəaliyyətiniz əhalinin qayğı ilə əhatə olunmasında öz əksini tapır. Allah Sizi və ailənizi, bütün yaxınlarınızı qorusun. Biz Sizinlə fəxr edirik və hər zaman yanınızdayıq”.

# İlham Əliyevin qlobal böhran şəraitində uğur modeli

## Azərbaycanın pandemiya ilə mübarizə planlarını öz hesabına həyata keçirməsi Prezidentin siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir

*Əvvəli 1-ci səh.*

Bundan başqa, pandemiyadan əziyyət çəkən bir çox ölkələrə müxtəlif yardımlar göstərdi. Cənab İlham Əliyevin bu addımları dünya birliyi tərəfindən dəfələrlə təqdir edildi.

Məhz bu çətin dövrdə Azərbaycan Prezidenti həm də makroiqtisadi sabitliyin qorunması üçün düşünülmüş addımlar atdı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə dövlət başçısı vurğuladı ki, pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacib məsələlərdən biridir. Ona görə də Azərbaycan pandemiya dövründə də etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin etməkdədir.

Həm makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində həyata keçirilən layihələr, vergi güzəştləri və məşğulluğa dəstək tədbirləri, həm də tranzit daşımalarının maneəsiz təmin edilməsi təbii ki, postpandemiya dövründə Azərbaycan iqtisadiyyatına müsbət təsirini göstərəcək. Bütün bunları nəzərə alan Avropa Yenidənqurma və İnkişaf Bankının regional iqtisadi perspektivlərə dair hesabatında bildirildi ki, gələn il Azərbaycan iqtisadiyyatı 3 faiz artacaq.

### İlham Əliyevin mütərəqqi qərarlarına verilən yüksək beynəlxalq qiymət

Dünyada və ölkəmizdə pandemiya dövrünün birinci mərhələsinin yekunlarını təhlil etsək görərik ki, hər zaman olduğu kimi, pandemiya dövründə də Azərbaycan istənilən dövlətlə təcrübəsini bölüşdü. ÜST bir çox ölkələrə Azərbaycan təcrübəsini nümunə göstərdi. Bəyan edildi ki, Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində təcrübəsi ən mütərəqqi və ən insansevər təcrübədir.

Bu dövrdə Azərbaycan rəhbərlik etdiyi iki böyük təşkilat - Türk Şurası və Qoşulmama Hərəkatının videokonfrans formatında zirvə görüşlərini təşkil etdi. Hər iki konfransda koronavirusla mübarizə sahəsində Prezident İlham Əliyevin atdığı addımlar çox müsbət qiymətləndirildi.

Prezident İlham Əliyev isə bu məsələlərə münasibətində qeyd etdi ki, Azərbaycan hər zamankı kimi, ortaya nümunə qoyaraq etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi: “Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik”.

Həqiqətən də, Azərbaycan dövləti bütün dövrlərdə ehtiyacı olan insanlara, yardım üçün müraciət edən ölkələrə əl tutub, lazımi kömək göstərib. Bu da Prezident İlham Əliyevin humanist, insansevər siyasətinin bariz təcəssümüdür.

### Pandemiya ilə mübarizədə İlham Əliyev örnəyi

Artıq pandemiyanın ikinci dalğası başlayıb. Bir tərəfdən insan tələfatı, yoluxmanın getdikcə artması, digər tərəfdən ölkələrin iqtisadiyyatındakı tənəzzül dövrü ciddi çətinliklər yaratmaqdadır. Azərbaycanda da son günlərdə yoluxma və ölüm faktlarının artması müşahidə olunur. Ancaq həkimlərin səyləri nəticəsində sağalanların sayı gündən-günə artır.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük nailiyyətlərə imza atır. Azərbaycan dünyanın yeni reallıqlarına çevik və adekvat reaksiya verir. Yəni dünyanın bir parçası olan ölkəmiz bəşəriyyəti böyük sınaq qarşısında qoyan qlobal pandemiyaya qarşı nəinki milli səviyyədə səmərəli tədbirlər görür, eyni zamanda regional və qlobal miqyasda koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İlk dəfə Milli Məclisdə beynəlxalq parlament təşkilatları üzrə nümayəndə heyətlərinin rəhbərləri ilə videokonfrans formatında görüş keçirilib





Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ilk dəfə beynəlxalq parlament təşkilatları üzrə nümayəndə heyətlərinin rəhbərləri ilə videokonfrans formatında görüşüb.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə beynəlxalq fəaliyyətin daha səmərəli həyata keçirilməsi və heyətlər arasında əlaqələndirmənin daha yaxşı qurulması istiqamətində geniş fikir mübadiləsi aparılıb.

Videokonfransda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, görüşün məqsədi nümayəndə heyətlərimiz qarşısında qoyulan hədəflər, gözləntilərimiz və beynəlxalq təşkilatlar üzrə heyətlərin iş prinsipləri haqda fikir mübadiləsi aparmaqdır. O bildirib ki, VI çağırış Milli Məclisdə beynəlxalq təşkilatlar üzrə 12 nümayəndə heyəti və bir ikitərəfli komissiya fəaliyyət göstərir. "Əminəm ki, işimizi doğru və əlaqələndirilmiş şəkildə quracağımız təqdirdə bütün bu platformalar bizə parlament diplomatiyamızı uğurla həyata keçirmək imkanı verəcəkdir", - deyə Sahibə Qafarova qeyd edib.

Altıncı çağırış Milli Məclisin ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqində əksini tapan konseptual məsələlərin parlamentin beynəlxalq fəaliyyətinin həyata keçirilməsində də "yol xəritəsi" kimi çıxış etdiyini deyən Milli Məclisin Sədri bildirib: "Parlamentin Sədri olaraq mənim məsuliyyətim dövlət başçısının tövsiyələri əsasında beynəlxalq fəaliyyətimizin daha səmərəli qurulmasını təmin etməkdir".

Sahibə Qafarova deyib ki, Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, beynəlxalq təşkilatlar üzrə nümayəndə heyətlərimizin fəaliyyəti Azərbaycanın milli maraqlarını qorumağa, fərqli gündəlikləri ilə ölkəmizə təzyiq etməyə çalışan qrupların bu cəhdlərinin qarşısının alınmasına yönəlməlidir. O deyib: "Çünki Azərbaycan Prezidentinin də hər zaman dediyi kimi, həqiqət bizim tərəfimizdədir, doğru olan bizik! Hər bir fürsətdən istifadə edib Dağlıq Qarabağ mövzusunu diqqətdə saxlamalıyıq".

Videokonfransda çıxış edən nümayəndə heyətlərinin rəhbərləri Milli Məclisdə ilk dəfə belə bir görüşün keçirilməsinə görə minnətdarlıqlarını bildirib, gələcək fəaliyyətləri ilə bağlı fikirlərini ifadə ediblər.

# *Sahibə QAFAROVA:* "Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır"

İyunun 11-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sədr Azərbaycan-Türkiyə əlaqələrinin bu gün yüksək səviyyədə olduğunu bildirib. Qeyd edilib ki, münasibətlərimizin bu səviyyəyə çatmasında dövlət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin əhəmiyyəti böyükdür. Dövlətlərarası münasibətlər sistemində özünəməxsus yer tutan parlamentlərarası əlaqələrimizin inkişafı bu sahəyə öznəmüsbət təsirini göstərir.

Sədr ümidvar olduğunu bildirib ki, dost və qardaş Türkiyənin ölkəmizdəki səfirinin fəaliyyəti əməkdaşlığımızın həyatın digər sahələrində daha da dərinləşməsinə öz töhfəsini verəcək. Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan - Türkiyə dostluğu sarsılmazdır və heç bir qüvvə bu münasibətləri sarsıda bilməz.

Səmimi görüş üçün minnətdarlığını bildirən qonaq Sahibə Qafarovaya Milli Məclisin Sədri vəzifəsində fəaliyyətində uğurlar arzulayaraq öz ürək sözlərini söyləyib. Səfir qeyd edib ki, onun təmsil etdiyi ölkə həmişə Azərbaycanın yanındadır. Tarixən mövcud olmuş münasibətlərimiz bundan sonra daha da güclənəcək.

Söhbət zamanı parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf perspektivləri, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin deputatı Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib

98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat, Milli Məclisin Sədri Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videoqəbulda deputat seçicilərin bir sıra məsələlərlə əlaqədar müraciətlərini dinləyib. Bildirilib ki, bundan öncəki videoqəbullarda seçicilər tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq dövlət qurumlarına sorğular göndərilib, bir qisim məsələlər isə artıq öz həllini tapıb.

Sahibə Qafarova deyib ki, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşların həyat şəraitlərinin yaxşılaşdırılması, geniş sosial-müdafiə tədbirlərinin həyata keçirilməsi istiqamətində mühüm işlər görülür. Yeni növ koronavirus (COVID-19) pandemiyası dövründə də Azərbaycan dövləti vətəndaşlarımıza böyük dəstək tədbirləri həyata keçirib. O cümlədən ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da fəaliyyətinin əsasını insanlara qayğı təşkil edir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə çox mühüm təşəbbüslər irəli sürür, layihələr həyata keçirir.

Sahibə Qafarova ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində görülən tədbirlər haqqında da məlumat verərək hər kəsin Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməyinin vacibliyini vurğulayıb. O, seçiciləri mövcud vəziyyətlə əlaqədar zəruri sosial davranış, şəxsi gigiyena və tibbi-profilaktik qaydalara əməl etməyə, sosial məsafəyə riayət etməyə, zərurət olmadığı halda evdən çıxmamağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa çağırıb.

Qeyd edək ki, görüşdə Şəmkir Rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak ediblər. Seçici müraciətlərində əksini tapan bəzi məsələlər yerli xarakterli olduğundan baxılması üçün İcra Hakimiyyəti nümayəndələrinə yönləndirilib. Digər müraciətlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular göndərilib.

# Baş Nazirin müavininin BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi ilə videokonfrans formatında görüşü olub

Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov ilə BMT-nin İnkişaf Proqramının (BMTİP) ölkəmizdəki rezident nümayəndəsi Alessandro Frakasetti arasında videokonfrans formatında görüş keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində görülən tədbirlər haqqında fikir mübadiləsi aparılıb. Bu xüsusda BMT-nin COVID-19 pandemiyasının Azərbaycan da daxil olmaqla, bütün ölkələrdə sosial-iqtisadi təsirinin qiymətləndirilməsi ilə əlaqədar proqramı barədə danışılıb. Baş Nazirin müavini təqdim edilmiş proqramın müvafiq qurumlar tərəfindən öyrənildiyini bildirib.

Əli Əhmədov Azərbaycanda COVID-19 pandemiyasının əmək və məşğulluq sahəsinə mənfi təsirinin azaldılması, özünüməşğulluğun və sosial rifahın dəstəklənməsi istiqamətində aparılan işlər barədə danışıb.



Görüşdə həmçinin ətraf mühit və iqlim dəyişmələri məsələləri ətrafında müzakirələr aparılıb. Baş Nazirin müavini ölkəmizin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişindən irəli gələn öhdəliklərini sistemli şəkildə həyata keçirdiyini qeyd edib.

# Azərbaycanın və Litvanın hüquq mühafizə orqanları arasında səmərəli hüquqi əməkdaşlıqdan məmnunluq ifadə edilib



İyunun 11-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Litva Respublikasının ölkəmizdəki səfiri Eqidius Navikas ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Baş prokuror Kamran Əliyev, ilk növbədə, hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, yeni informasiya texnologiyalarının tətbiqinə əsaslanan qabaqcıl təcrübənin tətbiq olunması, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan köklü kadr və struktur islahatlarının reallaşdırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində aparılan tədbirlərdən danışan Baş prokuror Avropa İttifaqının Azərbaycan hökumətinin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdikləri tədbirləri alqışladığını və Litva Respublikasının hüquq mühafizə orqanları ilə mövcud səmərəli ikitərəfli hüquqi əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Görüşdə 2009-2011-ci illərdə Avropa İttifaqının "Tvinninq" layihəsi çərçivəsində Litvanın Xüsusi İstintaq İdarəsi ilə Azərbaycan Prokurorluğu arasında "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə dəstək" layihəsini xatırladan Kamran Əliyev "Tvininq" layihəsi çərçivəsində əməkdaşlığın Avropa strukturlarına inteqrasiya istiqamətində mühüm nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynadığını xüsusi vurğulayıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən səfir Eqidius Navikas ikitərəfli münasibətlərə toxunaraq, təmsil etdiyi ölkənin Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini bildirib. Diplomat ölkələrimizin prokurorluq orqanları arasında faydalı əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunub, faydalı fikir mübadiləsi aparılıb.

# Müdafiə Nazirliyi: Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni yeni yollar çəkməyə məcbur edir

Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb.



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı bəyanatda deyilir.

Bəyanatda qeyd olunur ki, strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan Ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir.

# Ermənistan silahlı qüvvələri atəşkəsi 23 dəfə pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Novruzlu kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# MİLLİ QURTULUŞ
## – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2020

Dünya xəritəsində yer alan irili-xırdalı dövlətlərin hər birinin mövcudluğu və inkişafı konkret situasiyada önə çıxaraq, məsuliyyəti üzərinə götürmüş lider amili ilə bağlıdır. Millətlərin vahid məqsədlər uğrunda toparlanması üçün zəruri olan milli ideya da məhz bu cür liderlərin, böyük şəxsiyyətlərin siyasi konsepsiyasında real əsaslarını tapır. Bu baxımdan tam əminliklə demək olar ki, xalqımızın əsrlər boyu formalaşan güclü, qətiyyətli, istiqamətverici ümummilli lider idealı məhz Ulu Öndər Heydər Əliyevin şəxsiyyətində həqiqətə çevrilir.



# Müstəqilliyi möhkəmləndirən mütərəqqi inkişaf strategiyası

Heydər Əliyev dühasının böyüklüyü həm də onun daim xalq qarşısında yüksək mənəvi və siyasi məsuliyyət hissi daşıması, ictimai inamı doğrultmaq üçün böyük səylə, əzmlə, vicdanla çalışması olmuşdur. Siyasətə ideyaların realizə vasitəsi kimi yanaşan Ulu Öndər bütün məsələlərdə daim ümumxalq mənafeyindən çıxış etmiş, hakimiyyətdə olduğu hər iki mərhələdə eyni əzmlə, həvəslə çalışmış, qarşıya qoyduğu hədəflərə yetişmək üçün bütün gücünü səfərbər etmişdir. Məhz bu keyfiyyətləri sayəsində o, heç zaman kiçik bir qrupun, toplumun lideri olmamış, bütöv bir millətə rəhbərlik etmək haqqını təmin etmişdir. Şəxsiyyət və lider kimi miqyasının böyüklüyü ona hələ sağlığında ümummilli liderlik zirvəsini fəth etmək imkanı vermişdir.

Ulu Öndərin özünü təcrübəli dövlət xadimi və rəhbər kimi təsdiqləməsi, cəlbedici ideya və proqramlarla insanların inam və etimadını qazanması, habelə məğlubedilməz obrazı həm də qeyri-adi bir keyfiyyətlə - liderlik xüsusiyyətləri ilə ölçülür. Tarixdən yaxşı məlumdur ki, belə liderlik keyfiyyətlərinə malik şəxsiyyətlər sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni kataklizmlər dövründə xalqa düzgün yolu göstərən mayak və xilaskar missiyasında çıxış etmişlər. Heydər Əliyev də qeyri-adi şəxsiyyət kimi insanları ideya və baxışları ətrafında toplamaq, onların iradələrinə, qərarlarına pozitiv təsir göstərmək imkanında olmuş, məhz bu xüsusiyyətləri sayəsində idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici kəsimini arxasınca apara bilmişdir.

Ulu Öndərin ölkəyə bilavasitə rəhbərlik etdiyi 34 ilin bütün dövrlərində xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənmişdir. Bu zaman kəsiyi Azərbaycanda müstəqiliyyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib cıxması, milli-mənəvi yüksəlişə nail olması kimi tarixi prosesi əhatələyir.

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin düzgün qiymətlərilməsində ən obyektiv istinad yeridir. Bu mənada Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Həmin dövrün inkişaf salnaməsini kino lenti tək gözlərimiz önündə canlandırsaq, istər-istəməz bu qənaəti bölüşməli olacağıq: Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən etibarən, yəni Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişindən sonra başlanmışdır. Həmin dövrdən başlayan böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları Azərbaycanın həyatının başlıca gerçəkliyinə, inkişafın təməl daşına çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri həmin illərdə məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. 1970-1985-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Respublikamız bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tuturdu, burada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi. Əgər ötən əsrin ortalarına qədər Azərbaycanda cəmi 735 böyük sənaye obyekti tikilmişdisə, 1969-1982-ci illərdə onların sayı 1048-ə çatmışdı. Bu illərdə sənaye məhsulunun orta illik artımı 7,9 faiz artmış, ümumi məcmu məhsulda sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsullarının həcmini üstələyərək 66 faizə yüksəlmişdi. 1982-ci ildə kənd təsərrüfatı məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə, şərabçılıq 6 dəfədən artıq çoxalmışdı.

1969-1982-ci illərdə milli gəlir 2,6 dəfə artmış, Azərbaycan iqtisadiyyatının inkişafına 7,2 milyard manatlıq, yaxud əvvəlki 50 ildəkindən 4,5 dəfə çox kapital qoyulmuşdu. 1982-ci ildə bu rəqəm 1952-ci ildəkini 30 dəfə üstələyirdi. Respublikanın paytaxtı Bakı şəhəri ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir kimi şəhərlərdə, eləcə də rayonlarda çoxlu sayda sosial təyinatlı müasir binalar inşa olunmuş, 20 milyon kvadrat metr mənzil sahəsi yaşayış üçün əhalinin istifadəsinə verilmişdi. Bu illərdə 483,4 min şagirdlik 700-dək orta məktəb binası tikiilmiş, ali məktəblərin sayı 17-yə, tələbələrin sayı isə 70 mindən 100 min nəfərə çatdırılmışdı.

Böyük öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu dəyərli ənənələr sırasında gərəkli ixtisaslara yiyələnmək üçün azərbaycanlı gənclərin o vaxtki İttifaqın Moskva, Leninqrad, Kiyev kimi qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi təcrübəsi də xüsusi yer tutur. Əgər 1969-cu ildə ölkənin digər şəhərlərində təhsil alanların sayı cəmi 67 nəfər idisə, 80-ci illərin əvvəllərində hər il 1000-1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi. Bütövlükdə həmin dövrdə Azərbaycandan kənarda 15 mindən çox yüksəkixtisaslı gənc mütəxəssis yetişdirilmişdi. Milli hərbi kadrların hazırlanması üçün Bakıda C.Naxçıvanski adına hərbi məktəbin açılması ilə yanaşı, 1982-ci ildə 1000 nəfərdən çox gənc Sovetlər Birliyinin qabaqcıl ali hərbi məktəblərinə göndərilmişdi.

Ulu Öndər elmimizi və mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini də daim yüksək qiymətləndirirdi. Təsədufi deyil ki, Azərbaycanın onlarla böyük alimi, görkəmli yazarları, tanınmış incəsənət xadimləri və müqtədir sənətkarları sovet dövründə məhz onun qayğısı sayəsində Sovetlər Birliyinin Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adlara və dövlət mükafatlarına layiq görülmüşdülər.

Ulu Öndərin İttifaq dönəmində respublikaya rəhbərliyi illərində ən böyük xidmətlərindən biri də xalqımızın milli, mənəvi, mədəni dəyərlərinin qorunub saxlanılması ilə yanaşı, azərbaycançılıq ideologiyasının formalaşması üçün möhkəm zəmin yaratması idi. Bunun bariz nümunəsi 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR-nin Konstitusiyasında İttifaqın digər müttəfiq respublikalarından fərqli olaraq Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi idi.

Ümumilikdə miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun və şərəfli səhifələrini təşkil edən 1969-1982-ci illərdə Ümummilli Lider müdrik uzaqgörənliklə respublikanın gələcək müstəqilliyinə möhkəm iqtisadi bünövrə yaratmışdır.

Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də danılmaz gerçəklikdən qaynaqlanırdı.

1993-cü ilin iyununda Bakıya qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyətlə və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. İctimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur.

Tezliklə iqtisadi tənəzzülün qarşısını alan Heydər Əliyev respublikamızın davamlı inkişafı istiqamətində ciddi islahatları da uğurla reallaşdırmışdır. O zamankı məhdud imkanlarını nəzərə alan Ümummilli Lider iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın Xəzər dənizi hövzəsində malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab etmişdir. Ölkənin əsas təbii sərvəti olan neftin yüksək texnologiyalar əsasında çıxarılmasını təmin etmək üçün 1994-cü il sentyabr ayının 20-də dünyanın 8 aparıcı ölkəsinin 13 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi" adını almış möhtəşəm layihənin imzalanması milli inkişafda dönüş anı olmuşdur. Hasil ediləcək neftin dünya bazarına çıxarılması üçün Bakı- Novorossiysk və Bakı-Supsa kəmərləri yenidən qurulmuş, Bakı-Tbilisi-Ceyhan adlı misilsiz ixrac kəməri çəkilmiş, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng bir qaz kəmərinin əsası qoyulmuşdur.

Qədim İpək Yolunun bərpası konsepsiyası və TRASEKA nəqliyyat dəhlizi layihəsi də Ulu Öndərin yalnız öz xalqı üçün deyil, həm də onun bəşəri miqyasda xidmətlərindəndir. Ölkə iqtisadiyyatının möhkəmləndirilməsi ilə yanaşı, ictimai-siyasi sistemin və hüquqi-dövlət quruculuğunun təkmilləşdirilməsi istiqamətlərində ardıcıllığa həyata keçirilən islahatlar çərçivəsində Ümummilli Lider, ilk növbədə, ölkənin müstəqilliyini təsbit edən Əsas Qanunun hazırlanmasını məqsədəuyğun hesab etmişdir.

Ümummilli Liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Bu dövrdə qəbul olunmuş iqtisadi qanunlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və iqtisadi islahatların vətəndaşların mənafeyinə uyğun şəkildə həyata keçirilməsinə etibarlı zəmin yaratmışdır. 1995-2003-cü illərdə qəbul edilmiş 1715 qanundan 975-i məhz Ümummilli Liderin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunmuşdu.

Ulu Öndərin böyük missiyalarından biri də müəyyənləşdirdiyi strateji inkişaf kursunu və iqtisadi tərəqqi strategiyasını özündən sonra inamla, uğurla davam etdirə biləcək layiqli siyasi varis və davamçı yetişdirməsidir. Ulu Öndər hələ 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü ilin 31 oktyabrında səlahiyyətlərinin icrasına başlamış dövlətimizin başçısı cənab İlham Əliyev ötən 17 ildə Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə yanaşı, Ulu Öndərin xaos və anarxiyadan qurtardığı respublikamızın "Güclü dövlət - müstəqil siyasət" konsepsiyası əsasında inkişafını təmin etmişdir. Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana axarını təşkil edir. Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymayaraq tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsinin vacibliyini önə çəkirdi. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tuturdu.

Ötən 17 il ərzindəki fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensiali ilə uzlaşdığını tamamilə təsdiqləmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaratmış, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda 90-cı illərdə xaos və tərəqqidən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli iqtisadi modelinin formalaşmasını şərtləndirmişdir. Əgər 1993-2003-cü illərdə dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılması, iqtisadiyyatın dirçəldilməsi, ölkəmizin beynəlxalq arenada tanıdılması praktiki məqsədlər idisə, son 17 ildə obyektiv həyat reallıqları yeni hədəflər müəyyənləşdirmişdir.

Prezident İlham Əliyev qeyd etdiyi kimi, "Azərbaycanın bugünkü reallıqları bir daha müstəqilliyimizin üstünlüklərini göstərir. Tarixdə Azərbaycan heç vaxt bu qədər güclü olmamışdır. Bunun başlıca səbəbi müstəqil olmağımızdır. Müstəqillik ən böyük sərvətdir. Hər bir vətəndaş müstəqilliyi qorumalıdır, öz işi ilə müstəqilliyimizə töhfə verməlidir. Elə etməliyik ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin".

Bu müddət həm də dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvidir. Ümummilli Liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, "Ümid", "Abşeron" kimi perspektivli yataqların kəşf olunması, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi, TANAP, TAP layihələrinin gerçəkləşməsi bu baxımdan xüsusi qeyd olunmalıdır.

Prezident İlham Əliyevin imzaladığı bir sıra dövlət proqramları, ilk növbədə, regionların tarazlı və davamlı inkişafına, qeyri-neft sektorunun möhkəmləndirilməsini, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılmasını, infrastrukturun yeniləşdirilməsini təmin edən kompleks proqram sənədləri olmaqla yanaşı, bölgələrdə özəl sektorun inkişafına təkan verilmişdir. 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri əhatə edən 4 regional inkişaf proqramı bu baxımdan xüsusi əhəmiyyət kəsb etməklə, regionlarda intibah mərhələsinin əsasını qoymuş, sahibkarlığın yüksəlişinə zəmin yaratmış, yoxsulluğun səviyyəsinin azaldılmasında mühüm rol oynamışdır. Bu proqramların uğurla icra olunmasının mühüm göstəricilərindən biri də son 17 ildə ölkədə 1 milyon 900 mindən çox yeni iş yerinin açılması, habelə yoxsulluğun səviyyəsinin 44,7 faizdən 4,9 faizə, işsizliyin səviyyəsinin 28 faizdən 5 faizə enməsidir.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta sahibkarlığın (KOS) dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində KOS-un rolunun gücləndirilməsi; sahibkarlıq fəaliyyətinin sahə, regional və texnoloji baxımdan strukturunun optimallaşdırılması; kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi; sahibkarlığın dəstəklənməsinin müasir təşkilati modellərinin yaradılması, o cümlədən sahibkarlar üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və sair strukturların yaradılmasının davam etdirilməsi; ticarət yarmarkalarının yaradılması; yerli iqtisadiyyatın yönümünü nəzərə almaqla rayonlarda işsizlər üçün kadrların peşə hazırlığının təkmilləşdirilməsi mərkəzlərinin yaradılması; sahibkarlıq fəaliyyətinə müdaxilələrin qarşısının alınması təmin edilmişdir.



Sahibkarlığa dövlət dəstəyi eyni zamanda ixracyönümlü məhsulların istehsalını sürətləndirən müvafiq iqtisadi mexanizmlərin tətbiqini nəzərdə tutur. Ölkənin ixrac potensialının inkişaf etdirilməsi, Azərbaycan malları və xidmətlərinin xarici bazarlara çıxarılması, bunun üçün əlverişli şəraitin yaradılması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının təmini də prioritet istiqamətlər kimi önə çəkilir. Özəl sektorda ixracın stimullaşdırılması və ixrac mallarının çeşidinin artırılması, milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, ticarət, iaşə və məişət sahələrində xidmət səviyyəsinin daha da yüksəldilməsi, Ümumdünya Ticarət Təşkilatı prinsipləri çərçivəsində daxili bazarın qorunması, haqsız rəqabət hallarına qarşı mübarizənin gücləndirilməsi, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edən tədbirlər kimi diqqəti çəkir.

Azərbaycan Prezidentinin ötən 17 ildə iqtisadi sferada həyata keçirdiyi siyasətin ən önəmli cəhətlərindən biri də hər zaman sosialyönümlülüyün ön plana çəkilməsidir. Cənab İlham Əliyev dəfələrlə bildirmişdir ki, dövlətin yürütdüyü siyasətin əsasında insan amili dayanır. Odur ki, sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində dövlətin başlıca vəzifəsi davamlı sosial islahatlar həyata keçirmək, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə yararlanmasına şərait yaratmaqdır. Son illər əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını bir daha təsdiqləyir.

Ümumilikdə cənab İlham Əliyevin Azərbaycanın modernləşməsi ilə bağlı həyata keçirdiyi tədbirlərə ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması; qeyri-neft sektorunun inkişaf etdirilməsi; hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, onların inkişafının tarazlaşdırılması; çoxlu sayda yeni iş yerlərinin açılmasına şəraitin yaradılması; sahibkarlığın inkişaf etdirilməsi; sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması; yoxsulluğun azaldılması; yüksək elmi-mədəni tərəqqinin təmini və s. mühüm məsələləri şamil etmək olar.

Respublikanın malik olduğu mövcud potensial Azərbaycanın iqtisadi inkişaf statusunun dəyişməsinə və onun gələcəkdə inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş dövlətlər kateqoriyasına daxil edilməsinə lazımi imkanlar verir. Bu gün Azərbaycan iqtisadi cəhətdən özünü təmin edən ölkələrdən biridir və ərazi bütövlüyünün pozulmasına, təcavüzə məruz qalmasına, 1 milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, hər hansı xarici yardıma ehtiyac duymur. Azərbaycan dövlət büdcəsi kəsirinin ümumi daxili məhsula (ÜDM) nisbəti cəmi 8 faiz təşkil edir və respublika bu göstəriciyə görə dünyada üçüncü yeri tutur.

Ölkəmiz tədricən donor dövlətə, beynəlxalq miqyasda aparıcı investorlardan birinə çevrilməkdədir. Azərbaycan həm də azsaylı ölkələrdəndir ki, enerji, nəqliyyat, ərzaq təhlükəsizliyini uğurla təmin etməyi bacarmışdır. Bütün bunlar fonunda ölkədə insanların yaşayış səviyyəsinin daim yüksələn xətt üzrə inkişafı, sosial proqramların uğurla icra olunması, maaş və pensiyaların vaxtaşırı artırılması iqtisadi inkişafın həm də vətəndaşların həyatında öz təcəssümünü tapdığını göstərir.

Prezident İlham Əliyevin son 17 ildə ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu vardır. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik surətdə gerçəkləşdirilməsini təmin etmişdir.

2020-ci ilin əvvəllərindən etibarən bütün dünyanı ağır sınaqla üzüzə qoymuş koronavirus pandemiyasının qarşısının alınması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar bunu bir daha sübut edir. Digər region ölkələri ilə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və ölüm sayının nəzərəçarpacaq dərəcədə aşağı olması, ilk növbədə, ölkə rəhbərliyinin yürütdüyü düşünülmüş, qabaqlayıcı tədbirlərin məntiqi nəticəsi kimi təqdirəlayiqdir. Bu reallıq əksər aparıcı ölkələr, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbərliyi tərəfindən birmənalı etiraf edilir.

Tətbiq edilmiş sosial təcrid tədbirlərinin iş yerləri müvəqqəti dayandırılmış vətəndaşların rifahına və ölkə iqtisadiyyatına ciddi töhfələri olan sahibkarların işgüzar fəallığına mənfi təsirləri nəzərə alınmaqla, mühüm dövlət proqramlarının işlənib hazırlanması və qəbulu da diqqətdə saxlanılmışdır. Ölkə üzrə müxtəlif kateqoriyalı təbəqələrə 3,5 milyard manata yaxın dövlət yardımının edilməsi bunun əyani təzahürüdür. Eyni zamanda Vergi Məcəlləsinə təklif olunan əlavələrə görə, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövrdə bir sıra vergi güzəştləri və vergi tətillərinin verilməsi; mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin tətbiqi - 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi nəzərdə tutulmuşdur. Koronavirus pandemiyasının bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə 2020-ci il 1 yanvar tarixindən etibarən bir il müddətinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə azadolma da qüvvəyə minmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, son aylarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva da koronavirusla mübarizəyə sanballı töhfələrini verir. Xalqa özünəməxsus səmimiyyətlə, isti sözlərlə müraciət edən Birinci vitse-prezident çətin günlərdə hamını həmrəylik nümayiş etdirməyə, qaydalara məsuliyyətlə riayət etməyə çağırmışdır. Onun "Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik" fikri cəmiyyətdə mənəvi birliyi daha da gücləndirmiş, təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsinə, şəxsi məsuliyyət və nizam-intizamın artırılmasına müsbət təsirini göstərmişdir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü ilə xarici ölkələrdən zəruri tibbi avadanlıqlar, tibbi maskalar, əlcəklər, qoruyucu eynəklər, tibbi geyimlər və dezinfeksiyaedici vasitələr respublikamıza gətirilərək tibb müəssisələrinə verilmişdir. Rəhbəri olduğu Heydər Əliyev Fondunun "Biz birlikdə güclüyük" devizi altında yüz minədək ailəyə ərzaq yardımı göstərməsi də mühüm sosial aksiya kimi vurğulanmalıdır.

Koronavirus pandemiyası ilə bağlı bu gün qlobal səviyyədə cərəyan edən mürəkkəb siyasi, iqtisadi proseslərin mənfi təsirlərinə, bir çox ölkələrin ciddi iqtisadi, maliyyə və sosial problemlərlə üzləşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı dayanıqlılığını qoruyub saxlayır. Bu müddətdə 150-dək ölkə maddi yardım üçün Beynəlxalq Valyuta Fondu və digər maliyyə qurumlarına müraciət etsə də, bu sırada Azərbaycanın olmaması qürurverici fakt kimi qeyd olunmalıdır. Prezident İlham Əliyev iyunun 9-da üç modul tipli xəstəxananın açılışı zamanı bununla bağlı demişdir: "Bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, biz kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə".

Əlbəttə, gələcəyə dair baxışlar, strategiyalar nə qədər mükəmməl olsa da, onların taleyi, həyata keçirilməsi gözlənilməz hadisələrdən, ssenarilərdən deyil, bütün hallarda lider missiyasından - qərarların düzgün qəbulundan asılı olur. Azərbaycan hazırda öz inkişafının dönüş mərhələsində yaşayır və bunu mümkün edən isə düzgün hədəflər və onların davamlı reallaşdırılmasından irəli gələn nəticələrdir. Bu siyasətin gedişində yalnız konkret ölkə miqyasında deyil, bütövlükdə regionda və dünyada proseslərin axarını yeni məcraya yönəldə biləcək tarixi qərarlar verilir. Son zamanlar cəmiyyətdə korrupsiya və rüşvətxorluğa qarşı ciddi addımların atılması da bunu bir daha sübut edir.

Azərbaycanın çağdaş tarixində Heydər Əliyev siyasi kursunun təntənəsi kimi xatırlanacaq 2018-ci ilin 11 aprel prezident seçkiləri, eləcə də 2020-ci ilin parlament seçkiləri dünya birliyinə sürətlə inteqrasiya olunan, demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla böyük nüfuz sahibinə çevrilən müstəqil dövlətimizin həyatında yeni tarixi mərhələnin əsasını qoymuşdur.

Ölkəmizi anarxiya və xaosdan tərəqqi yoluna çıxarmış Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü milli ideya ötən 27 ildə inkişaf prosesində lokomotiv rolunu oynamışdır. Müstəqil Azərbaycan qarşısında duran ümummilli məqsədləri dəqiq müəyyən edərək onların gerçəkləşdirilməsi istiqamətində ardıcıl, sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yeni iqtisadi fenomeninə çevrilmişdir.

*Ümumi şəkildə ifadə etsək, bu gün ölkədə həyata keçirilən siyasətin başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik idealların cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir. Yeni dövrün milli ideallarına çevrilən bu məqsədlərin Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşacağı isə qətiyyən şübhə doğurmur.*

**Ağalar VƏLİYEV,**
***Milli Məclisin deputatı***

# MİLLİ QURTULUŞ

## – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993
2020







# Dövlətçilik salnaməsinin şərəfli səhifəsi

Hər bir xalqın yüksəliş salnaməsində, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olub. Həmin şəxsiyyətlərin öz xalqı, dövləti üçün misilsiz xidmətləri əsrlərin və nəsillərin yaddaşına əbədi həkk olunub. Zaman ötdükcə isə onların xeyirxah missiyasının, tarixi xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır.



Bu cəhətdən Azərbaycan xalqı xoşbəxtdir ki, onun Ulu Öndər Heydər Əliyev kimi dünya şöhrətli əbədiyaşar lideri var. Çünki bu gün müasir Azərbaycan dövlətinin mövcudluğu birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, Ümummilli Lider azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş, dünyada etdibarlı tərəfdaş kimi tanınan Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, dahi liderə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Azərbaycan xalqının tarixinə və taleyinə qızıl səhifələr yazmış Heydər Əliyevin Azərbaycanın müstəqillik illərində ölkəyə yenidən rəhbərlik etməsi həqiqətən xalqımız üçün böyük uğur və xoşbəxtlik idi. Onun Azərbaycan dövlətçiliyinin xilası naminə gördüyü işlərin miqyasını zaman keçdikcə daha dərindən dərk edir, Azərbaycanın müstəqillik və azadlığının nə qədər möhkəm bir bünövrə üzərində formalaşdığını, bu bünövrənin məhz Heydər Əliyev ideyaları əsasında qurulduğunu bir daha aydın görürük.

27-ci ildönümünü qeyd etdiyimiz Milli Qurtuluş Günü tariximizin şanlı məqamı, müasir dövlətçilik salnaməmizin ən şərəfli səhifəsidir. Məhz bu gün Azərbaycanın müstəqilliyinin davamlılığını, dövlətçiliyinin müqəddəratını həll edən tarixi an idi.

Çünki yenicə müstəqillik əldə etmiş bir ölkənin iki ildən sonra, 1993-cü ildə üzləşdiyi acınacaqlı durum xalqın yaddaşında silinməz acı illər qoyub. Müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan dövlət bir tərəfdən hərbi təcavüzə məruz qalır, digər tərəfdən vətəndaş müharibəsinə sürüklənirdi. Məhz belə bir çətin anda xilaskarlıq missiyasını üzərinə götürən yeganə şəxs Ulu Öndər Heydər Əliyev oldu. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Bakıya gələn dahi rəhbər Azərbaycanı uçurumdan qurtardı.

Həmin il iyun ayının 15-də Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin xilasına yol açan böyük siyasi hadisə kimi tarixə yazıldı. Məhz Heydər Əliyev dövlətçiliyimizi, azadlığımızı qorudu, xilas etdi və bu gün müstəqil, demokratik, hüquqi dövlətdə yaşamaq arzumuzun real və dayanıqlı əsaslar üzərində gerçəkləşməsi dahi şəxsiyyətin adı ilə bağlıdır.

15 iyun Milli Qurtuluş Günü "xalq-Heydər" birliyinin əzəmətli təntənəsi kimi tariximizə qızıl hərflərlə yazılıb. Xalq üzləşdiyi bütün təlatümlərdən, faciələrdən xilas yolunu məhz Heydər Əliyev şəxsiyyətində görürdü. Bir lider kimi Heydər Əliyev də millətin və dövlətin böhran və məşəqqətlərdən qurtuluşu üçün həyatını qurban verməyə hazır idi. Bu qarşılıqlı etimad, inam - xalq və lider birliyi dünya tarixində az rast gəlinən faktlardandır. Tariximizin 1980-ci illərdən sonra başlayan və indiyədək davam edən dövrünü diqqətlə araşdırsaq, Milli Qurtuluş Gününün əhəmiyyətini və əlahiddəliyini aydın dərk edərik.

Ulu Öndər Azərbaycanda, sözün həqiqi mənasında, möcüzələr yaratdı. Bəlkə Tanrının da əlini üzdüyü bir dövləti dağılmaqdan, parçalanmaqdan qurtardı. Əsl demokratik, vətəndaş cəmiyyətinin əsasını qoydu və inkişaf istiqamətinə yönəltdi. Vətəndaş cəmiyyətinin demokratik qurumlarından olan həmkarlar ittifaqına münasibətə yenidən baxıldı. Xalq Cəbhəsi-Müsavat cütlüyünün sıravi insanların müəyyən qrupu arasında həmkarlar ittifaqına qarşı yarada bildikləri inamsızlığı aradan qaldırmaq məqsədilə dövlət başçısı tərəfindən uğurlu addımlar atıldı.

Dahi liderin Azərbaycana yenidən qayıdışından sonra ölkəmizdə milli məfkurənin, vətəndaş cəmiyyətinin formalaşması və yüksəlişi, xalqın arzularının gerçəkləşməsi üçün gördüyü ən mühüm işlərdən biri də ictimai-siyasi qurumların inkişafı və fəallaşmasıdır. Azərbaycan həmkarlar ittifaqlarının müxtəlif siyasi qüvvələrin təsirindən qorunmasında, cəmiyyətdəki missiyasını yerinə yetirməsində Ümummilli Liderin əvəzsiz rolu olub. Bunların sayəsində həmkarlar ittifaqlarının uzun illər ərzində formalaşmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alındı, vətəndaş cəmiyyətinə yad olan inzibati-amirlik metodlarından imtina edildi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının demokratik idarəçilik prinsiplərinə əsaslanan fəaliyyətinə dəstək verildi. Ulu Öndər dövlətin sosial-iqtisadi siyasətinin reallaşdırılması işində, dövlət başçısı kimi fəaliyyətinin sonuna qədər həmkarlar ittifaqına güvəndi.

1994-cü il fevralın 24-də "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edildi. Prezident Heydər Əliyev tərəfindən təsdiq edilən bu qanunun qəbul edilməsi təşkilatımızın səmərəli fəaliyyət göstərməsi üçün hüquqi baza yaradılmasını təmin etdi. Bu qanun öz dəyərinə, məzmununa görə təkcə ölkə daxilində deyil, hətta MDB məkanında bir çoxlarına demokratiyanı sözdə yox, işdə dəstəkləməyin parlaq nümunəsi oldu. Heydər Əliyevin prezidentliyi illərində əməkçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı digər hüquqi-normativ aktlar qəbul olundu. Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyaları Milli Məclisdə ratifikasiya edildi. Ölkəmizdə ilk dəfə olaraq məhz həmkarlar ittifaqları özünün I və II qurultaylarında Ümummilli Liderin prezidentliyə namizədliyini irəli sürmüşdü.

Heydər Əliyev elə şəxsiyyətdir ki, fədakar əməyi, xalqına, vətəninə sonsuz məhəbbəti, sivil dövlət quruculuğu istəyi və yüksək peşəkarlığı, uzaqgörənliyi sayəsində Azərbaycan tarixində özünə əbədiyaşar heykəl qoydu. Bütün uğurlarımızda Heydər Əliyevin qoyduğu təməli görürük. O, bizə təkcə müasir, əbədiyaşar dövlət əmanət etmədi. Həm də zərgər dəqiqliyi ilə qurduğu dövlətimizi gələcəyə inamla apara biləcək davamçı bəxş etdi. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Onun rəhbərliyi altında Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoydu, fəaliyyəti ilə Heydər Əliyev yolunun nə dərəcədə doğru olduğunu bir daha sübut etdi.

Ümummilli Liderin əsasını qoyduğu iqtisadi, sosial islahatlar Prezident İlham Əliyev tərəfindən müasir sivilizasiyanın tələbləri səviyyəsində davam etdirildi və cənab Prezident Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi.

Bu gün cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin genişmiqyaslı inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişiklər məhz Ulu Öndərin müəyyənləşdirdiyi yolun layiqli davamıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın daha xoş sabaha olan inamını artırır, Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaradır.

Cənab İlham Əliyev Ulu Öndərin siyasi-ideoloji kursunu layiqincə davam etdirib Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirməklə, müstəqilliyimizi möhkəmləndirməklə, dövlətçiliyimizi qüdrətləndirməklə Heydər Əliyev ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi aydın sabahlara aparır.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Qurtuluşdan başlanan inkişaf və yüksəliş

Müstəqil yaşamaq hər bir xalq üçün ən qiymətli nemətdir. Şükürlər olsun ki, bu nemətdən Azərbaycan xalqına da pay düşüb. Lakin bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan və dünyada özünə layiq yer tutan Azərbaycan bu müstəqilliyi heç də asan əldə etməyib. Hətta yenicə əldə edilmiş müstəqilliyini itirmək təhlükəsi ilə üzləşib. Bir tərəfdən hərbi təcavüzə məruz qalan, digər tərəfdən hakimiyyət çəkişmələri ilə üzləşən Azərbaycan çox çətin sınaqlardan keçib.

### Ulu Öndər xilaskarlıq missiyasını uğurla yerinə yetirdi

Tarix sübut edir ki, hər bir xalqın davamlı və sabit inkişafını hansısa taleyüklü mərhələdə ona rəhbərlik edən müdrik lider müəyyənləşdirir. Ötən əsrdə xalqımızın yetirdiyi böyük şəxsiyyət - Ulu Öndər Heydər Əliyev də məhz belə liderlərdən olaraq Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf strategiyasını irəli sürmüş, bu kursun alternativsizliyini real addımlar, əməli nəticələrlə sübuta yetirmişdir.

1993-cü ildə son dərəcə ağır bir vaxtda xilaskarlıq missiyasını cəsarətlə öz üzərinə götürən Heydər Əliyev bu dəfə Azərbaycanı məhv olmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Bəlkə də Ulu Öndər 1993-cü ilin iyununda ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlməyə razılıq verməsəydi, indi Azərbaycan ya parçalanmışdı, ya da yenidən əsarət altına düşmüşdü.

Tarixə qısa ekskurs etsək, 1990-cı ilin əvvəlindən başlayaraq ölkədə acınacaqlı durumun hansı ssenarilər üzrə davam etdiyinə bir daha şahidlik etmiş olarıq. Müstəqilliyimizin ilk illərində dövlət rəhbərliyinin başına keçən naşı və səriştəsiz rəhbərlərin "fəaliyyəti" həm dövlətin zəifləməsinə, həm də torpaqlarımızın Ermənistan silahlı birləşmələri tərəfindən işğalına şərait yaratdı. Xaos və özbaşınalıq hökm sürən ölkədə cinayətkarlıq baş alıb gedir, dövlət orqanları iflic vəziyyətə düşürdü. Qanunsuz hərbi birləşmələr kimsəni tanımır, torpaqların müdafiəsini taleyin ümidinə buraxır və heç kəsin qarşısında məsuliyyət daşımırdılar.

Bütün bunlar acınacaqlı günlər keçirən xalqın səbir kasasını doldurdu və 1993-cü ilin iyun ayında ölkə ictimaiyyəti ayağa qalxaraq Heydər Əliyevi təkidlə hakimiyyətə çağırdı. Belə məqamda dahi rəhbər xalqın təkidli tələbini geri çevirmədi və bununla da Azərbaycanı böyük bəladan qurtarmış oldu. İyunun 9-da Bakıya gələn dahi rəhbəri xalq böyük ümid və sevinclə qarşıladı. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ümummilli Liderin Gəncəyə səfəri vətəndaş müharibəsinin qarşısını aldı.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu, Azərbaycanın müasir tarixində əsl müstəqil dövlət quruculuğunun başlanması tarixi kimi yaddaşlara yazıldı. Xalqın itirilmiş inamını özünə qaytaran Heydər Əliyev Azərbaycanın əbədi müstəqilliyini təmin etdi. Ona görə də tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün hesab olunur.

### İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövrünə çatdırdı

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1993-cü ildən sonrakı on il ərzində böyük və şərəfli yol keçdi. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yaddaşlarda və tarixdə qaldı.

1993-cü illə bugünümüzü 27 illik zaman kəsiyi ayırır. 27 ildir ki, Azərbaycanın yüksəliş yolu davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu gün Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyev bu siyasi kursa sadiq qalaraq müstəqil ölkəmizi inamla xoşbəxt gələcəyə doğru aparır.

Əgər Heydər Əliyev ölkəmizi parçalanmadan, məhv olma təhlükəsindən qurtararaq nicat yoluna çıxardısa, Prezident İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. Bunu Heydər Əliyev hələ illər öncə görür və deyirdi: "Vaxt gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün Azərbaycan məhz dahi liderin görmək istədiyi bir ölkəyə çevrilib.

Atdığı addımlarda Heydər Əliyev siyasi kursunun, zəngin dövlətçilik məktəbinin layiqli davamçısı olduğunu isbatlayan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tam müstəqil siyasətlə Azərbaycan dünya düzənində söz sahibinə çevrilib. Ən əsası, yürütdüyü siyasətlə İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövrünə çatdırdı.

Cəmiyyətin avanqard qüvvəsi olan gənclər də bu siyasəti hər zaman dəstəkləyir və öz dövləti, lideri ətrafında sıx birləşərək Prezidentin ən böyük dəstəkçisi, onun siyasətinin davamçılarıdırlar. Biz gənclər əminik ki, Azərbaycan məhz cənab İlham Əliyevin rəhbərliyi ilə xoşbəxt, parlaq gələcəyə qovuşacaq və bu yolda bir vətəndaş olaraq gənclər də hər zaman Prezidentin yanında olacaqlar. Çünki cənab İlham Əliyevin siyasəti ölkəmizin təbii sərvətlərinin insan kapitalına çevrilməsinə, dövlətin dayanıqlı inkişafına yönəlib. Gənclərin ən böyük xoşbəxtliyi, ən dəyərli sərvəti məhz Azərbaycanın müstəqilliyi, sabitliyi və tərəqqisidir.









### Məcburi köçkünlərin himayədarı

Son 17 ildə həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, xalqın sosial rifah halının yaxşılaşdırılması istiqamətində reallaşdırdığı bütün layihələr, apardığı mütərəqqi islahatlar cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb. Sosial sahədəki ən mühüm addımlardan biri də Ermənistanın işğalı nəticəsində doğma torpaqlarından məcburi köçkün düşmüş vətəndaşlarımızın sosial və mənzil şəraitinin yaxşılaşdırılmasıdır. İndiyədək respublikamızda qaçqın və məcburi köçkünlər üçün 111 qəsəbə, şəhərcik və kompleks yaradılıb. Bunlardan 111-cisi mayın 28-də açılışı olan "Qobu Park-3" yaşayış kompleksidir. Həm bu kompleksin yaradılması, həm də açılış mərasimində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etməsi məcburi köçkünlərə diqqət və qayğının növbəti ali təcəssümü oldu.

Dövlət qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görür. İndiyədək 111 şəhərciyin salınması böyük uğurdur. Prezidentin də söylədiyi kimi, son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürsə də, Azərbaycanda məcburi köçkünlərlə bağlı olan heç bir layihədə yubanma yoxdur və heç bir proqram ixtisar edilməyib. Hətta ötən il məcburi köçkünlər üçün rekord sayda (5 minə yaxın) evlər-mənzillər tikilib. Bu il isə qarşıya qoyulan hədəf 7-8 min məcburi köçkün ailəsinin evlərlə, mənzillərlə təmin edilməsidir. "Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq" - deyə dövlət başçısı bildirib.

Dövlətimiz məcburi köçkünlərin sosial təminatının yaxşılaşdırılması üçün də ciddi addımlar atır. Keçən il məcburi köçkünlərə verilən müavinətin həcmi 50 faiz artıb. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Bir sözlə, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır. Cənab Prezidentin açılış mərasimindəki çıxışı, məcburi köçkünlərə, qaçqınlara və xalqa olan müraciəti həm dövlət başçısının, həm də Birinci vitse-prezident Mehriban Əliyevanın qayğısının, diqqətinin təzahürüdür.

Bütün bunlar qaçqınların və məcburi köçkünlərin Azərbaycan Prezidentinin, Heydər Əliyev Fondunun daim xüsusi diqqət mərkəzində olduğunu aydın şəkildə nümayiş etdirir.

*Bu diqqət və qayğını daim öz üzərində hiss edən məcburi köçkünlər cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində tezliklə doğma yurda qayıdacaqları günün uzaqda olmadığına əmindirlər.*

***Vasif HƏSƏNOV,***
***YAP Ağdam Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini***

# MİLLİ QURTULUŞ – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2020

# Davamlı inkişafı təmin edən islahatlar kursunun banisi

*Əvvəli 1-ci səh.*

Eyni zamanda Azərbaycan neftinin mərkəzə daşınmasından daxilən narazı olan Heydər Əliyev qeyri-neft sahəsinə diqqət yetirmiş, buna maliyyə vəsaitinin ayrılmasına nail olmuş, bununla da respublikamızın regionlarının inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, azərbaycanlıların həyat şəraitinin yaxşılaşdırılmasına, əhalinin demoqrafik inkişafına, rayonların və kəndlərin mədəni simasının dəyişdirilməsinə dair strateji məqsədlərini ardıcıllıqla həyata keçirmişdir.

Ötən əsrin 70-ci illərində neft sənayesinin inkişafında da yüksəliş hiss olunmuş, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər də məhz Heydər Əliyevin təşəbbüskarlığı nəticəsində mümkün olmuşdur. Onun müəllifliyi ilə tərtib olunan “Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması” planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılmışdır. Azərbaycan məhz dahi rəhbərinin fədakarlığı nəticəsində keçmiş SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan aparıcı dövlətlərdən birinə çevrilmiş, əldə olunan uğurlar isə bilavasitə respublikamızın inkişafına yönəldilmişdir.

Bütün bunlar təsdiqləyir ki, Ulu Öndər Heydər Əliyev o dövrün ən ağır şərtləri, məhdudiyyətləri çərçivəsində xalqının gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni belə reallığa çevirmiş liderdir. Xüsusi vurğulamaq istərdim ki, azərbaycanlı gənclərin, o cümlədən ali təhsildə fərqlənən tələbələrin keçmiş SSRİ-nin bir sıra qabaqcıl universitetlərinə oxumağa göndərilməsi də Ulu Öndərin respublikada milli kadr potensialının formalaşdırılması istiqamətində atdığı mühüm addımlardan biri kimi xatırlanır. Azərbaycanın gələcəyi naminə uzaqgörənliklə əsası qoyulmuş bu ənənə milli elmi potensialın yüksəlməsinə, ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsinə hesablanmışdı. Ümumiyyətlə, o dövrdə Heydər Əliyevin qayğı və diqqəti ilə 10 minədək azərbaycanlı gənc respublikadan kənarda təhsil almağa göndərilmişdi.

1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edən Heydər Əliyev bir çox məqamlara toxunaraq deyirdi: *“Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum”.*

Tarixən zamanın nəbzini tutmağı, hadisələrə obyektiv qiymət verməyi bacaran liderlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olmuş, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, sınaqlarından üzüağ çıxarmış, milli xilaskara çevrilmişlər. Belə müdrik dövlət xadimləri ən çətin vəziyyətlərdən az itki ilə çıxış imkanı yaradan optimal qərarlar qəbul etmiş, xalqlarının mənafeyi naminə həyatlarını riskə atmaqdan belə çəkinməmişlər. Azərbaycan xalqının müasir tarixində əvəzolunmaz xidmətləri olmuş Ulu Öndər Heydər Əliyev də məhz xilaskarlıq və quruculuq missiyası ilə sağlığında Ümummilli Liderə çevrilmişdir.

Hadisələrin gələcək inkişaf axarını böyük uzaqgörənliklə duymaq bacarığı, sözünü məqamında deməsi, bütöv və prinsipial xarakteri sayəsində Ulu Öndər hadisələrin fövqünə qalxaraq idarəçilik qabiliyyətini reallaşdıra bilmiş, lider imicini qorumuşdur. Böyük öndərin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi və möhkəmləndirilməsi istiqamətində cərəyan edən proseslərin önündə getdiyini təsdiqləyən faktlar kifayət qədərdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikada cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan Ulu Öndər Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması, milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir. Keçmiş Naxçıvan MSSR-in adının dəyişdirilməsi, burada ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli dövlət bayrağının ucaldılması, habelə keçmiş SSRİ-nin saxlanılmasına münasibəti öyrənən referendumun boykot edilməsi və digər mühüm hadisələr bunun əyani təsdiqidir.

Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini əldə etsə də, de-fakto bu istəyini reallaşdıra bilməmiş, hakimiyyətdə olan səriştəsiz qüvvələr ölkənin ictimai-iqtisadi formasiya dəyişkənliyinin doğurduğu ağır problemlərin öhdəsindən gələ bilməmişlər. Nəticədə ölkədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. 1993-cü ilin iyun ayında Gəncədə baş qaldırmış hərbi qiyam isə ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, siyasi hakimiyyətə qarşı inamsızlığın məntiqi sonluğa yetişməsi idi. Müəyyən xarici qüvvələrin dəstəklədiyi bu silahlı qiyam respublikamızın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, silahlı vətəndaş müharibəsi, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanması təhlükəsini alovlandırmışdı.



Ümummilli Liderin 1993-cü ilin 9 iyununda xalqın təkidli tələbinə səs verərək Bakıya qayıtması isə onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, dövlətinin taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Respublikada hərc-mərcliyin, dərəbəyliyin hökm sürdüyü, qanunsuz silahlı dəstələrin at oynatdığı, düşmənlə mübarizə apara biləcək nizami ordunun olmadığı, ərazilərinin işğalının gündən-günə genişləndiyi, bir çox xarici dövlətlərin Azərbaycana qənim kəsildiyi, beynəlxalq aləmdə ölkəmizin təkləndiyi bir vaxtda hakimiyyətə gəlib hadisələrin gedişini qısa zamanda dəyişmək, normal məcrasına salmaq böyük siyasət və müdriklik tələb edirdi. Bugünkü prizmadan bir daha aydın görünür ki, Heydər Əliyevin qan içində çalxalanan paytaxta gəlməsinin özü bir qəhrəmanlıq nümunəsi, liderlik örnəyi idi.

Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilməsi onun sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş, qəhrəmanlıq tarixidir. Əgər xalqın təkidi ilə Heydər Əliyev həmin gün yenidən hakimiyyətə gəlməsəydi, bugünkü müstəqil Azərbaycanın varlığından danışmaq çətin ki, mümkün olacaqdı. Bu qayıdış ilk növbədə Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamış, ölkəni parçalanmadan, vətəndaş müharibəsindən, düşmən işğalının geniş miqyas almasından xilas etmişdir. Bu da təsadüfi deyildir ki, Ümummilli Lider Heydər Əliyevin iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi respublikanın çağdaş tarixində dönüş və Qurtuluş mərhələsi kimi dəyərləndirilir.

Xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin 10 oktyabrında Ulu Öndər Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçmiş, müdrik liderinin rəhbərliyi altında davamlı və dönməz inkişaf yoluna qədəm qoymuşdur. Ulu Öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Heydər Əliyev qısa zamanda özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, dünya təsərrüfat sisteminə inteqrasiya, xarici iqtisadi əlaqələrin gücləndirilməsi, münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını təşviq edən liberal inkişaf modelinin gerçəkləşdirilməsinə nail olmuşdur.

Sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da strateji məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatlar aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlanmış və mərhələlərlə həyata keçirilmişdir. XX əsrin qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən “Əsrin müqaviləsi” Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir. Bu müqavilə, eyni zamanda Azərbaycanın yüksək siyasi iradəsini, milli maraqlarını sonadək müdafiə etmək, təbii sərvətlərinə sahib çıxmaq əzminin təntənəsi kimi tarixiləşmişdir.

Ulu Öndər Heydər Əliyevin həmin illərdə müəyyənləşdirdiyi iqtisadi islahatlar bir tərəfdən ağır iqtisadi böhran və tənəzzül şəraitində əhalinin sosial vəziyyətini qismən də olsa yaxşılaşdırmağa, digər tərəfdən iqtisadi inkişafa xidmət edən islahatları təxirə salmadan həyata keçirməyə xidmət edirdi. Sirr deyildir ki, 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır, əhalinin maddi və sosial vəziyyətini ağırlaşdırırdı. Həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılı idi. Bu reallığı düzgün dəyərləndirən Ulu Öndər Heydər Əliyev ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımların həyata keçirilməsini təmin etdi. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanıldı və bu sahədə islahatlar qısa zamanda “Açıq qapı” siyasətinin tətbiqi zərurətindən irəli gəlirdi.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla bağlı olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Beləliklə, bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanmasına yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar həmin illərdə geniş beynəlxalq dəstək almış, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlayaraq ölkəmizə maliyyə yardımı göstərməyə başlamışdılar. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn islahatlar həyata keçirilmişdir. Sərt və çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması, xarici kapitalın cəlb olunması nəticəsində tezliklə ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təminatına nail olunmuşdur.

Bütün bunların nəticəsi olaraq 1996-cı ildən ölkədə ümumi daxili məhsulun artımına nail olunmuş, 1997-ci ildə bu artım 5,8 faiz təşkil etmişdir. Real sektordakı bu canlanma Cənubi-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq, 1998-ci ildə daha da inkişaf etmişdir. Qısa zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa başlamış, bu, ilk növbədə, sahibkarlığın inkişafı istiqamətində atılan ardıcıl addımların nəticəsi olmuşdur. Ümummilli Lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır.

1997-2003-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

1997-ci ildə qəbul edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı” əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdi. Dövlət proqramında ilk dəfə olaraq milli sahibkarlığın stimullaşdırılması və onun maliyyə təminatı mexanizmlərinin formalaşdırılması, daxili bazarın qorunması yolu ilə istehsal sahibkarlığının inkişaf etdirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması ilə bağlı kompleks tədbirlər planı öz əksini tapmışdır. Dövlət proqramı çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində sahibkarlıq subyektlərində əsassız yoxlamaların aparılması qadağan edilmiş, iş adamlarının fəaliyyətinə əngəl yaradan problemlərin aradan qaldırılması yolları göstərilmişdi.

Kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün sonrakı mərhələdə “Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununa bir sıra mütərəqqi dəyişiklik və əlavələr edilmiş, habelə “Haqsız rəqabət haqqında”, “İnvestisiyaların qorunması haqqında”, “İstehlak bazarı haqqında” və digər zəruri qanunlar qəbul edilmişdir. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz və xüsusi risklilik tələb etməyən biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdır.

Ümummilli Lider Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında” və 28 sentyabr 2002-ci il tarixli “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında” fərmanlarında dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında dərin kök salmış və həllini gözləyən bir sıra ciddi problemlər tam açıqlığı ilə göstərilmiş, onların qarşısının alınması üçün kompleks islahatlar aparılmışdır. Bütün bu tədbirlərin nəticəsi kimi 1996-2003-cü illərdə Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrində dinamik inkişaf və tərəqqi təmin edilmiş, milli sahibkarlar ordusu formalaşmış, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 75 faizə yüksəlmişdir.

2003-cü ildən bu siyasəti uğurla həyata keçirən və yeni çalarlarla zənginləşdirən möhtərəm Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi siyasət Azərbaycanı regionda ən sürətlə inkişaf edən, məqsədlərinə doğru inamla irəliləyən dövlətə çevirmişdir. Cənab İlham Əliyevin prezidentliyi dövründə iqtisadiyyat həyata keçirilən çoxşaxəli islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil etmişdir. İqtisadi məsələlərə xüsusi diqqətin ayrılması əsaslı yanaşma olaraq dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlmişdir. Ötən dövrdə xüsusən də regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılmışdır.

Dövlət başçısı Azərbaycanı enerji resurslarından asılı olmayan müasir və qüdrətli dövlətə çevirmək məqsədini sadəcə deklorativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində konkret addımlar atır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” fərmanında qeyd olunduğu kimi, *“Dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdəndir”.*

Ümumilikdə qeyri-neft sektorunda yaradılan əlavə dəyər 2003-cü illə müqayisədə ötən 17 ildə 10 dəfədən çox artmış, qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 50 faizi ötmüşdür. Bundan əlavə, qısa müddətdə Azərbaycanın valyuta ehtiyatlarının 51 milyard dollar səviyyəsinə yüksəlməsi, ixracın idxalı üstələməsi makroiqtisadi sabitliyin və manatın məzənnəsinin qorunub saxlanılması baxımından uğurlu göstəricilərdir.

Xüsusilə hazırkı pandemiya dövründə ölkədə uğurla reallaşdırılan iqtisadi islahatlar, eləcə də sahibkarlığa dövlət dəstəyi tədbirləri davam etdirilir. Dövlət başçısının 2014-cü il 3 mart tarixli “Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı bu sahədə ötən illərdən başlanmış islahatların mütərəqqi davamını təmin edəcək mühüm sənəd kimi dəyərləndirilir. Fərman Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə, sahibkarlığın inkişafına geniş imkanlar açmışdır.

Pandemiya dövründə xarici ticarətdə müsbət saldonun təmin edilməsi, şübhəsiz, ixrac sahibkarlığının dəstəklənməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Prezidentin 1 mart 2016-cı il tarixli “Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı sahibkarlığa dəstək istiqamətində mühüm addım olmuş, bununla ixrac məhsullarına ixrac təşviqinin maliyyələşdirilməsi və geriödəmə dəstəklərinin verilməsi mexanizmi yaradılmışdır.

Ümumilikdə son illərdə sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması,sahibkarların hüquqlarının qorunması məqsədilə apelyasiya şuralarının yaradılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında “bir pəncərə” prinsipinin tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi, idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi; dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması həyata keçirilmişdir.

Azərbaycanın son illərdəki dinamik inkişafının real göstəricilərindən biri də mərkəzin dotasiyalarından asılı olan rayonların sayının ilbəil azalmasıdır. 2020-ci ildə Azərbaycanın 65 rayon və şəhərindən 34-nə mərkəzi büdcədən vəsait ayrılmayıb. Bu isə regionların iqtisadi və sənaye potensialının son illər əhəmiyyətli dərəcədə möhkəmlənməsindən xəbər verir.

2018-ci ilin 11 aprel seçkilərindən sonra genişmiqyaslı islahatlarda keyfiyyətcə yeni mərhələ başlanmış, əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlər həyata keçirilmişdir. Respublikamız daha da güclənmiş, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atmış, insan amili həyata keçirilən siyasətin prioritetini təşkil etmişdir. Sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanmasında, xüsusən də 2019-cu ilin əvvəlindən etibarən əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücdəndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsində dövlət başçısı cənab İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür. Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyəti postneft strategiyası dövründə həyata keçirilən çoxşaxəli islahatların davamlığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmişdir.

Sistem xarakterli islahatların hazırkı mərhələsində mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması istəyi özünü daha qabarıq büruzə verir. İndiki mərhələdə dövlət başçısının başlıca tələbi yeniliklərlə ayaqlaşmaq, aparılan islahatların mahiyyətini düzgün dərk edərək ona dəstək vermək, bürokratik və neqativ amillərdən tamamilə uzaq olmaq, xalq üçün işləmək, hər bir vətəndaşın mənafeyini uca tutmaqdır. Son aylarda korrupsiyaya qarşı qətiyyətli mübarizə tədbirlərinin həyata keçirilməsi, yarıtmaz kadrlar barəsində sərt ölçülərin götürülməsi idarəçiliyin təkmilləşdirilməsi naminə ciddi siyasi iradənin mövcudluğunu bir daha təsdiqləyir.

Dünya ölkələrinin əksəriyyətinin son 6 ayda koronavirus pandemiyası qarşısında ciddi sosial-iqtisadi, tibbi, mənəvi-psixoloji problemlərlə üzləşdiyi, hətta vəziyyətə nəzarəti itirdiyi bir zamanda Azərbaycanın iqtisadi inkişaf tempini qoruyub saxlaması, eləcə də ciddi sosial paketin reallaşdırılması dövlətimizin rəhbərinin müdrik və uzaqgörən siyasətinin nəticəsi kimi cəmiyyətdə yüksək qiymət alır. Son 3 ayda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən onlayn beynəlxalq tədbirlərin nüfuzlu əcnəbi iştirakçıları, dövlət və hökumət başçıları, müxtəlif təşkilatların nümayəndələri respublikamızın bu sahədə keçirdiyi tədbirləri mütərəqqi, öyrənilməsi və tətbiqi zəruri olan model kimi dəyərləndirirlər. İqtisadi tənəzzül keçirən 150-dən çox ölkənin Beynəlxalq Valyuta Fondu və Dünya Bankına yardım üçün müraciət etdiyi bir dönəmdə Azərbaycanın digər dövlətlərə və qurumlara yardım göstərməsi mühüm uğurlar sırasında qeyd olunmalıdır.

Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 3,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu cəmiyyətdə böyük razılıqla qarşılanmışdır. Pandemiya dövründə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlərin nəzərdə tutulması iş adamlarına dəyən zərərin kompensasiya edilməsi baxımından olduqca əhəmiyyətlidir. Eyni zamanda pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın, ümumilikdə 600 minə yaxın insanın dövlətdən maddi yardım alması ölkə rəhbərinin daim xalqın yanında olduğunun əyani təsdiqidir.

Ölkəmizdə istər sosial-iqtisadi inkişaf, istərsə də sahibkarlığın inkişafı istiqamətində atılan addımlar Azərbaycanın ən böyük sənaye şəhəri olan Sumqayıtda da özünü qabarıq göstərir. Şəhərin malik olduğu əmək ehtiyatlarının və digər resursların konkret məqsədlərə yönəldilməsi, ən başlıcası, Azərbaycan Prezidentinin imzaladığı dövlət proqramlarından, fərman və sərəncamlarından irəli gələn vəzifələrin böyük əzm və bacarıqla həyata keçirilməsi Sumqayıt şəhərinin son illərdəki möhtəşəm uğurlarını şərtləndirən əsas məqamlar sırasındadır. Şəhər rəhbərliyinin ötən illərdə əldə etdiyi uğurlar - inkişafın əsasını müəyyən edən idarəetmənin elmi əsaslarla düzgün aparılması, situasiyaların səmərəli idarə olunması qarşıya qoyulan vəzifələrin uğurlu icrasını təmin etmişdir. Sumqayıt son illər yalnız yaşayış məntəqəsi kimi deyil, eyni zamanda sağlam ictimai iqlim zonası və ölkənin sosial-iqtisadi inkişafında yeri olan ərazi təsərrüfat kompleksi kimi inkişaf edir. İş adamı olaraq şəhərdə sahibkarlarla münasibətlərin sağlamlaşdırılması, qarşılıqlı faydalı əlaqələrin inkişafı, səmərəli layihələrin dəstəklənməsi istiqamətində atılan addımları da xüsusi vurğulamaq istərdik.

*15 iyun - Milli Qurtuluş Günü ərəfəsində əminliklə deyə bilərik ki, Heydər Əliyev dühasının müəyyənləşdirdiyi yolla inamla irəliləyən Azərbaycan xalqı onun ən layiqli davamçısı cənab İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti ətrafında sıx birləşərək, gələcəyə böyük nikbinliklə baxır. Mütləq əksəriyyət əmindir ki, Azərbaycan xalqının milli mənafeyinə cavab verən bu siyasət qarşıdakı illərdə də davam etdiriləcək, respublikamız inkişaf tempini qoruyub saxlayaraq qabaqcıl dövlətlər sırasında layiqli yerini tutacaqdır.*

**Qüdrət KƏRİMOV,**
***“Xəzər” QSC-nin sədri, iqtisad elmləri doktoru***




# Azərbaycan bütün parametrlər üzrə liderlik göstərib

## İlham Əliyevin rəhbərliyi altında ölkəmiz qlobal pandemiyaya qarşı effektiv mübarizə aparır

*Əvvəli 1-ci səh.*

Qonşu ölkələrlə yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz bağlanıldı, xaricdəki Azərbaycan vətəndaşları vətənə qaytarıldı.

Ölkə ərazisində mart ayının 4-dən etibarən sosial izolyasiya tədbirlərinə start verildi. Sonrakı günlərdə izolyasiya tədbirləri genişləndirildi və ölkədə karantin rejimi tətbiq olundu. Mart ayının əvvəllərindən bütün məktəblərdə tədris dayandırıldı, uşaq bağçaları bağlanıldı.

Xüsusi karantin rejimi zamanında da dövlət hər bir vətəndaşının yanında oldu, problemlərinin, çətinliklərinin həllinə dəstək göstərdi, maddi dayaq durdu. İqtisadi sabitliyi, məşğulluqla bağlı problemləri həll etmək üçün sosial-iqtisadi dəstək paketi qəbul olundu.

Eyni zamanda 20-dən çox müasir laboratoriyada yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testlərin edilməsi, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi və bu istiqamətdə görülən kompleks tədbirlər sağalanların sayını çoxaltdı. Azərbaycanda virusa yoluxmada ağır fəsadlar yaranmadı, COVID-19-a qarşı çevik mübarizə sayəsində qısa zaman kəsimində müsbət nəticələr əldə edildi.

### İnsanları qorumaq və onların həyatını xilas etmək missiyası

Qlobal pandemiya ilə mübarizənin ilk günlərindən etibarən bununla bağlı hər bir məsələ Prezident İlham Əliyevin diqqət mərkəzində oldu. Bütün bu dövr ərzində dövlət başçısının fəaliyyəti, mütəmadi keçirdiyi görüşlər, verdiyi qərarlar koronavirusla mübarizəyə öz töhfəsini verdi. Azərbaycan vətəndaşının sağlamlığı və təhlükəsizliyi hər zaman olduğu kimi, indi də dövlət siyasətinin əsas prioritetini təşkil edir. İyunun 9-da modul tipli xəstəxanaların açılışı zamanı Prezident İlham Əliyev bir daha bildirdi ki, görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunubdur və Azərbaycan burada da liderlik göstəribdir. Ümumiyyətlə, mübarizəyə və pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün işləri təşkil etmək üçün 3,5 milyard manat vəsait nəzərdə tutulubdur və bu vəsait xərclənir. Tibbi avadanlığın, dərman preparatlarının alınması - bütün bu işlərə dövlət böyük vəsait ayırdı".

### Beynəlxalq müstəvidə də Azərbaycan özünü çox məsuliyyətli aparır

Azərbaycan eyni zamanda beynəlxalq səviyyədə də koronavirusla mübarizəyə dəstək verən ilk ölkələrdən oldu. Dövlətimiz qlobal böhranın aradan qaldırılması istiqamətində ehtiyacı olan 10-dan çox ölkəyə maddi-texniki yardım edib, kömək əlini uzadıb, pandemiya ilə mübarizəyə qarşı dünya birliklərinin səylərinin birləşdirilməsinin təşəbbüskarı olub. Adıçəkilən xəstəxanaların açılışındakı çıxışında bu məsələyə də toxunan Prezident qeyd etdi ki, beynəlxalq müstəvidəki rolumuza gəldikdə, bildiyiniz kimi, Azərbaycan özünü çox məsuliyyətli aparır: "Mən qeyd etdim ki, ilk növbədə, ölkə daxilində və beynəlxalq arenada bizim təşəbbüsümüzlə iki Zirvə görüşü keçirilibdir: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Bildirməliyəm ki, Qoşulmama Hərəkatının Zirvə görüşündə 120 ölkə təmsil olunub, eyni zamanda, Afrika İttifaqı buna qoşulub, o İttifaqda 55 ölkə cəmləşibdir. Avropa İttifaqı ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə və ümumiyyətlə, ilk dəfə qoşulmuşdur. Avropa İttifaqında 27 ölkə var. Düzdür, Afrika İttifaqının bəzi ölkələri, eyni zamanda Qoşulmama Hərəkatının üzvləridir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan, deyə bilərəm ki, tam məsuliyyətlə dünyanı birləşdirdi. Qəbul edilmiş bəyannamədə Azərbaycanın xüsusi rolu yüksək qiymətləndirilir. Əlbəttə ki, bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə də bu, növbəti bir töhfədir. Azərbaycan liderlik göstərib.

Eyni zamanda biz Qoşulmama Hərəkatının üzvlərinə, ilk növbədə, müraciət edərək təklif etdik ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin. Bu dəstəyi biz aldıq, Qoşulmama Hərəkatının üzvləri bu təşəbbüsümüzü yekdilliklə dəstəklədilər və ondan sonra biz BMT Baş katibinə, - o, Qoşulmama Hərəkatının Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi, - müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda, bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək".

### Minnətdarlıqdan doğan səmimi hisslərin təzahürü

Göründüyü kimi, Azərbaycan həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə qlobal pandemiya ilə mübarizəyə öz layiqli töhfəsini verir. Buna görədir ki, Prezident İlham Əliyevə vətəndaşlarımız tərəfindən ünvanlanan təşəkkür məktubları saysız-hesabsızdır. Hər bir azərbaycanlının qəlbində dünyanın ən təhlükəli bəlasına qarşı Prezidentin rəhbərliyi altında ölkəmizdə aparılan mübarizənin dövlətimizi və xalqımızı qoruyacağına dair böyük əminlik var.

Çünki dövlət başçısı ən ağır günlərdə xalqı düşünməklə, onun yanında olmaqla, əsl lider kimi, öz müqəddəs missiyasını bir daha yerinə yetirdi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Pandemiya dövründə Azərbaycanda uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti qaydalar təsdiqlənib

Baş Nazir Əli Əsədov "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə qərar imzalayıb.

AZƏRTAC xəbər verir ki, qərar "Sanitariya-epidemioloji salamatlıq haqqında" qanunun 25-ci maddəsinə və Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na uyğun olaraq, Azərbaycan ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərin davam etdirilməsi məqsədilə imzalanıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu qərardan irəli gələn məsələləri həll edəcəklər. Qərarda hava limanında prosedurlar (uçub getmə proseduru), sərnişinlərin qeydiyyatı prosesi, uçuş zamanı prosedurlar, uçub gəlmə proseduru, aerovağzal kompleksində prosedurlar, hava gəmilərində təmizlik və təminat prosedurları, salonların təmizlənməsi və dezinfeksiyası, qida təminatı, hava gəmilərində məişət xidmətləri proseduru, təmizlik və dezinfeksiya işləri üzrə tələblər, şəxsi gigiyenaya dair tələblər, işçi heyətə dair tələblər kimi müddəalar yer alıb.

# Naxçıvana gedən və oradan gələn sərnişinlər ev karantininə alınacaqlar

COVID-19 testindən keçən hava yolu sərnişinlərinin karantinə alınması haqqında qəbul olunmuş qayda ölkə daxilindəki uçuşlara şamil edilir. Ölkə xaricinə uçuşlar haqqında olan qaydalar isə təsdiqlənəndən sonra məlum olacaq.

AZƏRTAC xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

Onun sözlərinə görə, Naxçıvana gedən və oradan gələn sərnişinlər dövlət hesabına testdən keçirildikdən sonra ev karantininə alınacaqlar.

# Yaqut QARAYEVA: "Vətəndaşlara gündəlik istifadə etdikləri dərmanların tədarükünü əvvəlcədən görmək tövsiyə olunur"

Sərtləşdirilmiş karantin rejiminin tətbiq edildiyi 9 şəhər və rayonda apteklərin fəaliyyətinə yalnız ünvana çatdırılma xidməti göstərilməklə icazə verilib. Nazirlər Kabineti yanında Operativ Qərargah sahibkarlara çatdırılma xidmətini pulsuz həyata keçirməyi tövsiyə edir.

AZƏRTAC xəbər verir ki, bunu bu gün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva söyləyib.

"Həftə sonlarında sərtləşdirilmiş karantin rejiminin tətbiq edilməsi ilə əlaqədar olaraq, vətəndaşlara gündəlik istifadə etdikləri dərman preparatlarının tədarükünü əvvəlcədən görməyi tövsiyə edirik. Elə bir təxirəsalınmaz hal baş verə bilər ki, dərmana ehtiyac yaranar, bunu da çatdırılma vasitəsilə həyata keçirmək olar. Vətəndaşlardan xahiş olunur ki, planlı surətdə alına bilən dərmanlarla bağlı müraciət etməsinlər. Çünki nəticədə hansısa vətəndaşın təxirəsalınmaz ehtiyacı olan dərman preparatının çatdırılması gecikdirilə bilər. Bu, çox önəmlidir", - deyə Y.Qarayeva bildirib.

Qeyd edək ki, yeni növ koronavirus (COVID-19) xəstəliyinin geniş yayılmasının qarşısının alınması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək.

# Sərtləşdirilmiş karantin rejimi tətbiq edilən 9 şəhər və rayonda apteklərin fəaliyyətinə yalnız ünvana çatdırılma xidməti göstərməklə icazə verilib

Xəbər verildiyi kimi, yeni növ koronavirus (COVID-19) xəstəliyinin geniş yayılmasının qarşısının alınması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, qeyd olunan tarixlərdə sərtləşdirilmiş karantin rejiminin tətbiq edildiyi 9 şəhər və rayonda apteklərin fəaliyyətinə yalnız ünvana çatdırılma xidməti göstərməklə icazə verilib.

Fəaliyyət göstərəcək apteklərin qeyd olunan tarixlərdə işləyəcək əməkdaşlarının və onların avtomobillərinin hərəkətinə işəgötürən tərəfindən məlumatlar elektron imzadan istifadə edilməklə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək. Qeydiyyat bitdikdən sonra sərtləşdirilmiş karantin günlərində fəaliyyət göstərəcək apteklərin ünvanları, iş saatı və evə çatdırılma xidmətindən istifadə üçün telefon nömrələri barədə məlumat "www.koronavirusinfo.az" saytında yerləşdiriləcək.

# Koronavirusla mübarizədə Azərbaycan nümunəsi

2020-ci il başlayandan bütün dünya COVID-19 adlı bəlayla mübarizəyə atılıb, qlobal pandemiyaya qarşı savaşır. Bu savaşda müxtəlif üsullara əl atılır, yeni "silahlar" - peyvənd və dərmanlar yaratmağa çoxsaylı cəhdlər edilir. Buna baxmayaraq, hələ də dünya koronavirusa uduzur. Bu kiçik mikroorqanizm insanları yoluxdurmağa, canlar almağa davam edir. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan dünyasını dəyişir. Heç bir ölkənin səhiyyə sistemi sayı artmaqda olan xəstələrin müalicəsini tam təşkil edə bilmir.

## Dövlət mövcud vəziyyətdən az itkilərlə çıxmaq üçün lazımi tədbirlər görür

Azərbaycan isə bu gün dünyanı bürümüş pandemiyaya qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələr sırasındadır. Koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti ilə səmərəli tədbirlər həyata keçirilir. Tbbi baxımdan ən inkişaf etmiş ölkələrin belə bu xəstəliklə mübarizədə aciz qaldığı bir vaxtda Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanda pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Dövlətimiz bütün imkanlarını virusun yayılmasının qarşısının alınmasına və fəsadlarının aradan qaldırılmasına səfərbər edib. Ölkəmiz bu çətin durumdan az itkilərlə çıxmaq üçün vaxtında qabaqlayıcı tədbirlər həyata keçirərək nümunəvi mübarizə ortaya qoyub. Azərbaycanın koronavirusla bağlı mübarizə metodları beynəlxalq aləmdə də təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı bu bəlaya qarşı mübarizədə Azərbaycanın gördüyü tədbirləri bir neçə dəfə yüksək qiymətləndirib, bu sahədə nümunəvi ölkə adlandırıb. Dövlət başçısının ilk gündən atdığı addımlar bütün strukturlar, hətta insanlar üçün nümunə olub, böyük motivasiya rolunu oynayıb. Məhz bunların sayəsində koronavirusa qarşı uğurla mübarizə aparan ölkələr sırasında respublikamız faktiki olaraq ön sıradadır.

### Adambaşına keçirilən testlərin sayına görə ölkəmiz qabaqcıl yerlərdədir

Azərbaycanda koronavirusla mübarizə sahəsində işlər yüksək səviyyədə təşkil olunub. COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsallı laborator testlər, tibbi avadanlıq və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirilib, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb. Xüsusi rejimli xəstəxanalar müvafiq dərman və qoruyucu vasitələrlə təmin olunub, hər bir karantin zonasına tibb müəssisələrinin rəhbərləri, həkim və orta tibb heyəti ezam edilib, virusla mübarizədə digər dövlətlərdəki həkim-ekspertlərlə təcrübə mübadiləsi aparılıb. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alınıb, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında gətirilərək tibb müəssisələrinə təhvil verilib.

Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib. Ölkədə testlərin aparılması üçün 20-dən çox laboratoriya fəaliyyət göstərir. Adambaşına keçirilən testlərin sayına görə ölkəmiz dünya miqyasında qabaqcıl yerlərdədir. Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 10-na olan məlumatına görə, ötən müddət ərzində ölkədə yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 356 032 test aparılıb.

### Azərbaycanda koronavirusa yoluxanlara yanaşma ən humanist yanaşmadır

Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Bu xəstəlikdən ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir. İyunun 9-da üç modul tipli xəstəxananın açılışında çıxışı zaman Prezident İlham Əliyev bu məsələyə toxunarkən dünya praktikasını nümunə göstərərək bildirib ki, bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır: "Dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib. Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün, bu günə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir.

İnkişaf etmiş ölkələrlə digər müqayisəni də apara bilərəm. Məsələn, bir neçə inkişaf etmiş ölkə var ki, orada ölənlərin sayı bizdə yoluxanların sayından çoxdur. O inkişaf etmiş ölkələr ki, orada səhiyyə sistemi həmişə etalon, bir nümunə hesab edilib. Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, on minə yaxın insan ölüb. Bizdə isə sadəcə yoluxanların sayı 8 minə qədərdir. Ona görə bizdəki yanaşma, - hər bir yoluxmuş insana tibbi xidmət göstərilir, - ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaq".

### Bütün işlərin mərkəzində Azərbaycan vətəndaşlarının sağlamlığı durur



Hazırda Azərbaycanda mövcud səhiyyə imkanları vəziyyəti nəzarət altında saxlamağa imkan verir. Koronavirus xəstələrini müalicə etmək üçün ən qabaqcıl 20 xəstəxana ayrılıb. Ümumilikdə isə son 16 il ərzində ölkəmizdə 700-dən çox tibb müəssisəsi ya yenidən tikilib, ya əsaslı təmir edilib. Artıq mövcud xəstəxana fondu, xüsusilə müasir xəstəxanaların fəaliyyəti uzun illər ərzində tələbatımızı ödəyəcək. Ancaq koronavirus pandemiyası öz qaydalarını diktə etdiyi üçün yeni xəstəxanaların tikintisi labüddür. Bu baxımdan dövlət başçısının tapşırığı ilə tikilən modul tipli xəstəxanalar koronavirusa qarşı mübarizədə böyük rol oynayacaq.

Azərbaycanda artıq yeni modul tipli 4 xəstəxana açılıb. İyunun sonuna kimi daha 6 xəstəxana açılacaq və bununla da yeni yaradılmış modul tipli xəstəxanaların sayı 10-a çatdırılacaq. Yeni yaradılmış modul tipli xəstəxanaların hesabına əlavə iki min çarpayı əldə olunacaq ki, bu da koronavirusla bağlı mübarizədə mövcud imkanları daha da genişləndirəcək.

Eyni zamanda karantində qalan vətəndaşlar üçün də xüsusi şərait yaradılıb. Onlar 4-5 ulduzlu hotellərdə, Atletlər Kəndində yerləşdirilir. Bu müddət ərzində minlərlə insan xaricdən təxliyə edilib və proses qrafik üzrə davam etdirilir. Azərbaycana qayıtmaq istəyən vətəndaşlar xüsusi portaldan qeydiyyatdan keçirlər, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər. Bu da onu göstərir ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı və diqqətlə əhatə olunublar.

Dövlət mövcud vəziyyətdən az itkilərlə çıxmaq üçün əlindən gələni edir. Çünki Azərbaycanda görülmüş bütün işlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanıb. Həyata keçirilən tədbirlərin məqsədi həm də kritik vəziyyətə hazır olmaq, ən böhranlı vəziyyətdə belə bütün xəstələrə tibbi xidmətin göstərilməsini təmin etməkdir. Əsas vəzifə insanları xəstəlikdən qorumaq, onların həyatını xilas etməkdir. Və görünən də odur ki, qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Yüksək kredit reytinqi Azərbaycana dünyanın aparıcı bank-maliyyə institutları ilə səmərəli əməkdaşlıq imkanı verir



*Əvvəli 1-ci səh.*

Yeri gəlmişkən, qeyd edək ki, dövlət borcu strategiyasında 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması hədəflənsə də, Azərbaycanda bu göstərici 20 faiz ətrafındadır. Dəyişkən faiz dərəcəsi ilə cəlb olunan borcun ümumi portfeldə payı da strategiyada nəzərdə tutulduğundan aşağı həddədir və bu, faiz risklərini aşağı salır. Azərbaycanın xarici dövlət borcunun və strateji valyuta ehtiyatlarının əhəmiyyətli hissəsinin eyni valyutada - ABŞ dollarında saxlanılması da valyuta risklərimizi azaldır.

Dünyada borclanma ilə bağlı son vəziyyəti şərh edən V.Qasımlı deyir ki, qlobal olaraq dövlət borclarının cari il ərzində 13 faiz bəndi qədər artaraq dünya ÜDM-in 83 faizindən 96 faizinə qalxacağı proqnozlaşdırılır. Azərbaycanda bu göstəricinin orta dünya səviyyəsindən beş dəfə aşağı olduğunu bildirən icraçı direktor eyni zamanda fiskal balansın inkişaf edən ölkələrdə kəskin mənfi olacağı, orta gəlirli və aşağı gəlirli ölkələrdə isə müvafiq olaraq ÜDM-in -9.1 və -5.7 faizinə qədər çatacağının gözlənildiyini diqqətə çatdırır: “İnkişaf edən ölkələrin qeyri-rezidentlərinin portfelindən maliyyə çıxarılmaları bu ilin yanvar ayının sonlarından başlayaraq artım tendensiyası ilə 100 milyard dollara çatıb. Qlobal faiz dərəcələrinin çox aşağı olmasına baxmayaraq, belə ölkələrin əksəriyyəti üçün borclanmanın xərci artıb. Bundan başqa, BVF tərəfindən Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasına daxil olan, inkişaf edən 76 ölkə və 13 ada ölkəsinə, eyni zamanda 25 ən yoxsul ölkəyə borcların restrukturizasiyası və ödəmələrin qismən saxlanılması təklif olunub”.

Azərbaycanın strateji valyuta ehtiyatları ola-ola xaricdən borc cəlb etməsinə aydınlıq gətirən icraçı direktor bunları deyib: “Məsələn, 2019-cu ildə dövlət büdcəsi hesabına imzalanmış kredit müqavilələrinin faiz dərəcəsi Euribor və LİBOR stavkası əsasında müəyyənləşib. Hər iki indeks isə hazırda mənfi işarəyə malikdir, yeni kreditlər üzrə faiz dərəcəsi 1 faizin altındadır. Əlbəttə, burada valyuta riskini də nəzərə almaq lazımdır. Müqayisə üçün deyək ki, 2019-cu ildə Dövlət Neft Fondunun portfelinin ümumi gəlirliliyi daha yüksək həddə olub - 5,3 faiz. Təsəvvür edin ki, ötən il biz xarici vəsaiti 0-1 faiz xərclə cəlb etdiyimiz halda, xaricdə yerləşdirilən aktivlərimizdən 5,3 faiz qazanmışıq. Aradakı təxminən 5 faizlik fərq bizim qazancımızdır. Üstəlik, nəzərə almaq lazımdır ki, ötən il Fransa İnkişaf Agentliyi və Asiya İnkişaf Bankından cəlb etdiyimiz kreditlərin 3-6 il güzəşt dövrü var”.

Digər tərəfdən, dünyanın aparıcı maliyyə institutları ilə əməkdaşlıq ölkəmizin tədiyyə qabiliyyəti və etibarlı partnyor kimi imicini gücləndirir. Eyni zamanda bu yolla beynəlxalq standartların tətbiqi, qabaqcıl təcrübələrin öyrənilməsi, şəffaflılıq və hesabatlılıq, həmçinin səmərəlik sahəsində irəliləyiş əldə edirik. Azərbaycana sərmayə qoyan ciddi investorlar həm də ölkəmizin inkişafında maraqlı olurlar. Bu isə əlavə qarantiyalar deməkdir. Xaricdən cəlb edilən vəsaitin tədiyyə balansına, fiskal balansa və yerli valyuta bazarına müsbət təsirlərini də qeyd etmək lazımdır. Hətta Asiya İnkişaf Bankının ayıracağı bəzi kreditlərin manatla ifadə olunması mümkündür ki, bu da yerli valyutaya inamı gücləndirir. “Amma bütün hallarda xaricdən cəlb edilən kreditlər o dərəcədə səmərəli istifadə olunmalıdır ki, gəlirlilik səviyyəsi həm xərcləri bağlasın, həm də ölkə üçün əlavə dəyər yaransın. Xarici borcdan səmərəli istifadə əsas prioritet olmalıdır”, - deyə V.Qasımlı vurğulayıb.

Bəs ölkəmizdə xarici kreditlərdən nə dərəcədə səmərəli istifadə olunur? Bu suala cavab verən icraçı direktor deyib ki, məsələn, Asiya İnkişaf Bankı müxtəlif ölkələrdə öz layihələrinin uğur dərəcəsini qiymətləndirir. Azərbaycanda bu göstərici 80 faizdir və bu, regionumuz üçün yaxşı göstəricidir: “Müqayisə üçün deyim ki, bu göstərici Gürcüstanda 75, Qırğıstanda 67,6, Özbəkistanda 65,5 və Qazaxıstanda 53,8 faizdir”. Elə həm də bu səbəbdən beynəlxalq maliyyə qurumları Azərbaycana kredit verməkdə maraqlıdırlar. Bundan əlavə, Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə rəy yaradıb. “Bu gün ölkəmizin strateji ehtiyatları onun xarici borcundan beş dəfə çoxdur. Üstəlik, ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Region üçün yüksək sayıla biləcək kredit reytinqlərimiz də qiymətli kağızların emissiyasına, dövlət zəmanətli kreditlərin faizinin və sığorta mükafatlarının azalmasına səbəb olur”, - deyə iqtisadçı bildirib.

Bütün bunların fonunda isə indiki mürəkkəb zamanda - qlobal böhranın astanasında olan əksər ölkələrin maliyyə mənbələri axtardığı dövrdə nüfuzlu maliyyə-kredit institutlarının əməkdaşlıq üçün Azərbaycana müraciət etmələri təbiidir.

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***

## İqtisadi sektorda 1,6 milyondan çox adam çalışır

### Onların orta aylıq əməkhaqqı 26,7 faiz artaraq 736 manata çatıb

**Cari il mayın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 92,8 min nəfər və ya 5,9 faiz artaraq 1 milyon 676,1 min nəfər olmuşdur. Onlardan 926,6 min nəfəri iqtisadiyyatın dövlət, 749,5 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda bildirilir ki, muzdla işləyənlərin 19,9 faizi təhsil, 17,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,8 faizi tikinti, 6,8 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,7 faizi iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 26,7 faiz artaraq 736,2 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Sənayenin qeyri-neft sektorunda 14 faiz artım qeydə alınıb



**Azərbaycanda bu ilin yanvar-may aylarında 15,5 milyard manatlıq (2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çox) sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 14 faiz artmışdır.**

Dövlət Statistika Komitəsi xəbər verir ki, sənaye məhsullarının 62 faizi mədənçıxarma, 31,6 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 3,1 faiz azalmış, əmtəəlik qaz hasilatı 15,5 faiz artmışdır. Emal sektorunda isə əczaçılıq məhsullarının istehsalı 3,1, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,3, metallurgiya sənayesi məhsullarının istehsalı 2,2 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 94,6, ağacın emalı və ağacdan məmulatların istehsalı 57,2, digər nəqliyyat vasitələrinin istehsalı 37,6, elektrik avadanlıqlarının istehsalı 26,5, tütün məmulatlarının istehsalı 26,1, kimya sənayesi məhsullarının istehsalı 24,6, kağız və karton istehsalı 15, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,6, geyim istehsalı 13, hazır metal məmulatlarının istehsalı 7,4, içkilərin istehsalı 2,9, neft məhsullarının istehsalı 2, poliqrafiya məhsullarının istehsalı 1,8, qida məhsullarının istehsalı 1,8, toxuculuq sənayesi məhsullarının istehsalı 1,6 faiz artmış, mebel istehsalı 1,5, maşın və avadanlıqların istehsalı 8,2, tikinti materiallarının istehsalı 9,3, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 37,2, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 44,2 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 13, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 1,5 faiz artmışdır.

## Özünüməşğulluq proqramı iştirakçıları üçün təlimlərə başlanılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq proqramı iştirakçıları üçün təlimlərin keçirilməsinə başlayıb.**

Təlimlər “Vətəndaş qəbulu həyata keçirən qurumlarda koronavirus (COVID-19) infeksiyasının profilaktikasına dair” metodiki göstərişlərə uyğun şəkildə, 10 nəfərdən ibarət qruplar halında təşkil olunur.



İlkin mərhələdə koronavirus pandemiyası ilə əlaqədar təlimlərində fasilə yaranmış 1102 nəfərin təlimləri davam etdirilir. Növbəti mərhələdə isə 1804 iştirakçı təlimlərə cəlb olunacaq. Bu ilin əvvəlindən artıq 2600 nəfər proqram üzrə təlimlərə qoşulub. Təlimlər zamanı biznes-plan qurmaq, kiçik biznesin təşkili və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlar öyrədilir.

## Ölkə üzrə taxıl zəmilərinin 15 faizində biçin başa çatıb



**Azərbaycanda taxıl biçini davam edir. Bugünədək ölkə üzrə zəmilərin 15 faizində biçin başa çatıb, 150794,4 hektar sahədən 453395,7 ton məhsul yığılıb.**

Kənd Təsərrüfatı Nazirliyinin açıqladığı məlumata görə, biçilən sahələrin 147519 hektarı arpa, 3275,4 hektarı buğda sahələridir. İyunun 11-nə olan operativ məlumata görə, orta məhsuldarlıq 30,1, o cümlədən arpa üzrə 30, buğda üzrə 34 sent/ha təşkil edir. Biçin prosesinə 1413 kombayn cəlb olunub. Bunlardan 517-si “Aqrolizinq” ASC-nin rayon bölmələrinin balansında olan kombaynlardır. “Aqrolizinq” tərəfindən məhsulun tez və itkisiz yığılması üçün biçinə başlanılmayan dağlıq və dağətəyi rayonlardakı bölmələrdən hazırda aktiv biçin prosesinin getdiyi Aran rayonlarına əlavə olaraq 185 kombayn dislokasiya edilib. Biçin prosesinə hüquqi və fiziki şəxslərin mülkiyyətində olan 711 kombayn da qoşulub. “Aqrolizinq”in kombaynları tərəfindən 58382, hüquqi və fiziki şəxslərin kombaynları tərəfindən 92412,4 hektar sahə biçilib.

Bugünədək arpa üzrə ən yüksək məhsuldarlıq Tovuz rayonunda qeydə alınıb - 44 sent/ha. Bərdə (39,7 sent/ha), Sabirabad (38,1 sent/ha), Saatlı (37,7 sent/ha), İmişli (37,6 sent/ha), Samux (37,6 sent/ha), Salyan (37,5 sent/ha), Ağdam (36,6 sent/ha), Qax (35,7 sent/ha), Tərtər (34,4 sent/ha) və Ağsu (33 sent/ha) rayonlarında da məhsuldarlıq yüksəkdir.

Qeyd edək ki, bu il Azərbaycanda 1010218 hektar sahədə payızlıq taxıl əkilib. Bunlardan 640977,6 hektarı buğda, 369240,4 hektarı arpa sahələridir.

## Azərbaycanın və Türkiyənin birgə layihəsindən bütün Avrasiya faydalanacaq

*Əvvəli 1-ci səh.*

Müxtəlif neft regionlarında istismar olunan qaz yataqlarının ehtiyatları getdikcə azalır. Yeni yataqlar isə heç də tez-tez kəşf olunmur. Bu baxımdan Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağının ehtiyatları mühüm əhəmiyyət kəsb edir. Bu, 1,2 trilyon kubmetr mavi yanacaq sərvəti olan zəngin yataqdır. Buradan çıxarılan qazı Avropaya “Cənub qaz dəhlizi” nəql edəcək. TANAP 3500 kilometrlik bu möhtəşəm dəhlizin ən böyük hissəsidir.

TANAP Azərbaycan qazını Gürcüstan-Türkiyə sərhədində Cənubi Qafqaz Boru Kəmərindən (CQBK) qəbul edir. CQBK “Cənub qaz dəhlizi”ni yaradan üç kəmərdən birincisidir, uzunluğu Azərbaycanın ərazisində 443, Gürcüstanda 248 kilometrdir. CQBK-nin yolunu Türkiyənin ərazisində 1850 kilometrdən çox məsafə boyu TANAP davam etdirir. TANAP Türkiyənin 20 vilayətindən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincan vilayətlərindən, habelə 67 rayonundan və 600 kəndindən keçir. Kəmərin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Xəttin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılır.

TANAP Türkiyə-Yunanıstan sərhədindəki Kipoi məntəqəsində TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. Bir tərəfdən CQBK-yə, digər tərəfdən TAP-a bağlandığı üçün TANAP-ı “Cənub qaz dəhlizi”nin “birləşdirici halqası”, yaxud “onurğa sütunu” da adlandırırlar.

“Cənub qaz dəhlizi”nin TANAP-dan sonrakı 878 kilometrlik hissəsi TAP-ın payına düşür. Bu kəmərin 550 kilometri Yunanıstandan, 215 kilometri Albaniyadan, 105 kilometri Adriatik dənizinin altından keçəcək, sonuncu 8 kilometri İtaliya ərazisində quruda yerləşəcək. Hazırda TAP-ın çəkilişi uğurla yekunlaşmaqdadır və cari ilin sonunadək bu boru xəttinin TANAP-la nəql olunan mavi yanacağı qəbul edəcəyi gözlənilir. Belə ki, keçən il noyabrın 30-da TANAP-ın çəkilişi tam yekunlaşıb və o, Avropa sərhədinə çataraq TAP-la qovuşub.

Xatırladaq ki, TANAP-ın çəkilişinə dair hökumətlərarası saziş 2012-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyev və o vaxt Türkiyənin Baş Naziri, indi isə Prezidenti olan Rəcəb Tayyib Ərdoğan tərəfindən İstanbulda imzalanıb. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda kəmərin təməli qoyulub. 2018-ci ilin iyun ayında artıq istismara daxil olmuş boru xətti ilə Türkiyəyə ilk qaz həcmlərinin nəqlinə başlanıb. Keçən il noyabrın sonunda isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.

TANAP-ın səhmlərinin 51 faizi “Cənub qaz dəhlizi” QSC-yə, 7 faizi STEAŞ-a, 30 faizi “Botaş”a, 12 faizi BP şirkətinə məxsusdur.

TANAP-la Türkiyəyə bu il 4 milyard kubmetr və 2021-ci ildə 6 milyard kubmetr Azərbaycan təbii qazı çatdırılacaq. Hər il boru xəttinə ötürülən 16 milyard kubmetr qazın 10 milyard kubmetri isə Avropaya nəql ediləcək.

Cari ilin yanvar-aprel aylarında TANAP boru kəməri ilə Türkiyəyə 1,3 milyard kubmetr təbii qaz göndərilib. İstismara veriləndən cari il mayın 1-dək isə bu kəmərlə qardaş ölkəyə 5,1 milyard kubmetrdən çox qaz ixrac edilib.

TANAP möhkəm təmələ əsaslanan kəmərdir. Çünki yaranan böyük dəhlizin başlanğıcında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi möhtəşəm layihələrin təcrübəsi dayanır. Kəmərin istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli tədbirdə Prezident İlham Əliyevin dediyi kimi: “TANAP-ın istifadəyə verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür”.

İstər “Cənub qaz dəhlizi”, istərsə də onun ayrı-ayrı seqmentləri, o cümlədən TANAP möhkəm beynəlxalq əməkdaşlıq platforması üzərində inkişaf edən layihələrdir. Bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində bir daha vurğulamışdır: “TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Arıçılara 5 milyon manatdan çox subsidiyanın verilməsi nəzərdə tutulur

**Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) cari il üzrə ölkədə 22670 arıçı qeydiyyatdan keçib. Onlar 22781 arı təsərrüfatına sahib olmaqla 23052 arıxanaya qulluq göstərirlər. Ümumilikdə, 506944 arı pətəyi qeydiyyata alınıb.**

Ən çox arıçı, arı təsərrüfatı və pətək sayı Balakən rayonundadır. Bu rayonda 1104 arı təsərrüfatında 32273 arı pətəyi saxlanılır. Arıçıların sayına görə isə Zaqatala rayonu 1349 arıçı ilə ölkədə bu təsərrüfat fəaliyyətinə ən çox marağı olan rayon kimi qeyd edilib. Ağsu, Tovuz, Lerik, Qax rayonları da təsərrüfatların sayı ilə öndədir. Arıçıların saxlamağa üstünlük verdiyi əsas arı cinsi Bozdağ Qafqaz cinsidir. Ölkə üzrə bu cinsdən olan 395090 arı ailəsi qeydə alınıb.

Prezidentin 27 iyun 2019-cu il tarixli fərmanı ilə təsdiqlənmiş Subsidiya Qaydalarına əsasən, 1 arı ailəsinə görə 10 manat subsidiya ödənilir. “Arıçılara ödənilən subsidiyanın ölkəmizdə bu təsərrüfat sahəsinin inkişafına, məhsuldarlığın artmasına xidmət edəcəyinə əminik. Yeni mexanizm bizə bu təsərrüfat sahəsinin inkişafında maraqlı olub, lakin məhsuldarlığı az olan bölgələri müəyyənləşdirməyə şərait yaradacaq. Bu da gələcəkdə məhsuldarlığı artırmaq üçün dəstək layihələri hazırlamağımıza imkan verəcək”, - deyə Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev vurğulayıb.



Qeyd edək ki, bu ildən tətbiq edilən yeni subsidiya mexanizminə əsasən, kənd təsərrüfatı istehsalçılarına verilən bütün subsidiyalar, o cümlədən arıçılara ödənilən subsidiya EKTİS-də vahid sistemdə birləşib. Arıçılar subsidiya almaq üçün öz təsərrüfatları, arı pətəklərinin sayı, bəslədikləri arının cinsi haqda məlumatları bu sistemdə yerləşdirirlər. Arıçıların EKTİS-də 2020-ci subsidiya ili üçün qeydiyyatı mayın 31-də başa çatıb.

# “Lenta.ru”: Ermənistan koronavirusla savaşı uduzub

Rusiyanın “lenta.ru” saytında jurnalist Elen Babayanın “Cəhənnəmə addımlayırıq” sərlövhəli məqaləsi dərc edilib. Materialda COVID-19 koronavirus pandemiyası ilə əlaqədar Ermənistanda yaranmış cari vəziyyətdən bəhs edilir. AZƏRTAC həmin məqaləni təqdim edir.

* * *

### Ermənistan koronavirusla savaşı uduzub. Orada insanlar çipləşdirməyə inanır və kütləvi şəkildə yoluxurlar

Ermənistanın COVID-19 koronavirus infeksiyası ilə savaşı uduzmuş dövlətlər siyahısına düşmək üçün hər cür şansı var. Ölkədə xəstəliyin sürətlə yayılması yenidən müşahidə olunur, ağır vəziyyətdə olan pasiyentlərin faiz nisbəti kəskin şəkildə artıb, səhiyyə sisteminin resursları tükənməkdədir. Bununla bərabər, hakimiyyət orqanları küçələrdə maskasız halda yaxalanmış vətəndaşları sosial şəbəkələrdə qınamaqla kifayətlənirlər. Vətəndaşlar isə utanmağa tələsmir, çünki epidemiyanın lap əvvəlindən heç kəs epidemioloji təhlükəsizlik qaydalarına riayət olunmasına nəzarət etmirdi. Üstəlik, çoxları COVID-19 barəsində rəsmi KİV və hörmətli ictimai xadimlər tərəfindən yayılan konspiroloji nəzəriyyələrə inanır. Bəs necə olur ki, Ermənistanı epidemiyanın ikinci dalğası bürüyüb və bu dalğa respublika əhalisinə necə təhdid edir?




### Gözlənilməyən yerdən dəyən zərbə

Ermənistanın baş naziri Nikol Paşinyan ötən çərşənbə günü “Facebook” şəbəkəsinin birbaşa efirinə çıxıb və vətəndaşları təzə xəbərlə təşvişə salıb - ölkədə “epidemioloji fəlakət” yaranıb, baş nazir özü və onun bütün ailəsi COVID-19-a yoluxub, sadəcə bu yoluxma simptomsuz olub. Ölkədə vəziyyət, həqiqətən, pisləşib: bütün dünyada məhdudiyyətlər götürülür, koronavirus epidemiyasının azalması qeydə alınır, Ermənistanda isə xəstələrin sayı üçqat artıb.

Ermənistanda COVID-19-dan qeydə alınmış ölüm hallarının 70 faizi son üç həftəyə təsadüf edir. Bu müddətdə xəstəliyin sürətlə artması müşahidə olunur.

Mayın 20-də ölkədə rəsmən təsdiq edilmiş xəstəlik hallarının sayı 5606 olduğu halda, iyunun 10-da xəstələrin sayı artıq 14103 olub. Ölüm hallarının sayı da kəskin artıb. Ölkədə epidemiya dövründə qeydə alınmış 227 ölüm halından 160-ı bu dövrə düşüb. Həmin dövrdə daha 67 nəfər koronavirusa yoluxmuş olsa da, onlar “başqa səbəblər üzündən” ölmüş hesab edilir. Koronaviruslu xəstələri öldürən “başqa səbəblər” nədir və bu səbəblər üzündən ölənlərin sayı nəyə görə bu qədər çoxdur - bunu heç kəs izah etmir.

Lakin belə güman etməyə əsas var ki, real vəziyyət qat-qat pisdir. Məsələn, iyunun 1-də həkimlər 1249 nəfərdən analiz götürüblər, onlardan təqribən yarısının analizi müsbət nəticə verib. Bununla belə, sutka ərzində aparılan testlərin sayı iki mini aşmır - resurslar çatışmır. Fəlakətin real miqyasını hakimiyyət orqanları da qismən etiraf edirlər. Paşinyan özü iyunun 7-də bəzi “analitik məlumatlar” dərc edib, həmin məlumatlara görə o anda Ermənistanda yoluxmuş şəxslərin sayı 100 min olub. Sonradan baş nazir bu postunu redaktə edib və həmin rəqəmləri götürüb.

Hakimiyyət orqanları vəziyyətin pisləşməsində dərhal vətəndaşları təqsirləndiriblər - Paşinyan göstərir ki, xalq, xüsusən Yerevanda təhlükəsizlik tədbirlərinə kütləvi şəkildə etinasızlıq göstərir. Baş nazir qaydaları pozanlara qarşı elə həmin “Facebook”un köməyi ilə mübarizə aparır, vaxtaşırı küçələrdə sosial məsafəni və evdən kənarda maskasız olmaq barədə qadağanı pozan insanların fotoşəkillərini dərc edir. O, sosial şəbəkənin digər istifadəçilərini də bu “kütləvi epidemiya əleyhinə hərəkata” qoşulmağa çağırır.

Hakimiyyət orqanları hələlik heç bir başqa tədbir tətbiq etməyə hazırlaşmır. Paşinyan artıq eyhamla bildirib ki, hüquq mühafizə orqanları epidemiyaya qarşı mübarizə aparmayacaqlar, çünki bu məsələni həll edə biləcək “güc strukturu yoxdur”.

Baş nazir Nikol Paşinyan xəstəliyin kəskin artması barədə fikrini belə ifadə edib: “Biz böhran nöqtəsinə çatmışıq. İndi cəhənnəmə addımlayırıq”.

Baş nazirin sosial şəbəkədə paylaşdığı fotoşəkillərdə, həqiqətən, epidemiya dövründə elementar davranış qaydalarına riayət etməyən insanların kütləvi şəkildə toplaşması görünür. Maska və əlcək yoxdur, olanda da çənənin altına düşüb və ya burnu örtmür. İnsanlar qrup şəklində toplaşır, növbədə dayanır, məsafə gözləmir və ilaxır. Bu şəkillərə əsasən, onların epidemiyanın pik dövrünü yaşayan ölkədə çəkildiyini demək mümkün deyil. Lakin burada təzə bir şey yoxdur - heç kəs, o cümlədən baş nazir özü də əvvəldən təhlükəsizlik qaydalarına riayət etmirdi.

### Konspiroloqlar epidemiyanın müttəfiqləridir

Ermənistanda fövqəladə vəziyyət rejiminin tətbiq edildiyi bütün müddətdə (martın 16-dan bəri) həyat bir dəqiqə belə sakitləşməyib və faktiki olaraq İsveç ssenarisi üzrə davam edib, lakin skandinavlılara xas olan şüurluluq və təmkin müşahidə olunmayıb. Ermənilər mümkün qədər çox sayda həmvətənlərini yoluxdurmaq üçün əlindən gələni edirlər. “Facebook”un Ermənistan seqmentində artıq iki aydır ki, yayılan foto və videolarda heç bir karantin əlaməti görünmür.

İş burasındadır ki, xalq kütlələrinin çox hissəsi bu virusa qeyri-ciddi yanaşır. Bunun da azı iki səbəbi var. Birinci səbəb - “bəlkə də sovuşdu” düşüncəsi və qonşusunun həyatına laqeyd münasibətdir. İkinci səbəb koronavirus təhlükəsini süni şəkildə azaldan və ya ümumiyyətlə, inkar edən populyar konspiroloji nəzəriyyələrdir. Ermənilərin əsas götürdüyü cəfəng fikirlər sırasına saxta elmi və gülməli dərəcədə ağlasığmaz nəzəriyyələr palitrası daxildir.

Bəziləri əmindir ki, COVID-19 təhlükəlilik dərəcəsinə görə adi soyuqdəymə ilə müqayisə oluna bilər. Savad dərəcəsi daha aşağı olanlar əmindirlər ki, bu virusu Bill Geyts və ya dünya miqyaslı sui-qəsdçilər qrupu fikirləşib ki, məcburi vaksinləşdirmə bəhanəsi ilə çipləşdirmənin köməyi ilə bütün bəşəriyyət kölə vəziyyətinə salınsın. Belə bir absurd fərziyyənin pərəstişkarları da tapılır ki, epidemiyanın səbəbi 5G vışkası olub, lakin Ermənistanda bu cür vışkalar olmadığına görə virus da yoxdur.

Bill Geyts bəşəriyyətin kütləvi şəkildə çipləşdirilməsi məqsədilə dünya miqyaslı sui-qəsd nəzəriyyələri barədə deyib: “Mən heç vaxt mikroçiplərə oxşar şeylərlə məşğul olmamışam. Bunu təkzib etmək çox çətindir, çünki bu, çox cəfəng və qəribə fikirdir”.

Yaxın vaxtlarda qohumlarını dəfn etmiş tanışlarının həyatında baş vermiş halları təsvir edən adamları ayrıca qeyd etmək lazımdır. Guya, həkimlər bu adamların yanına gəlir və bir-iki yüz dollar təklif edirlər ki, onlar mərhumun COVID-19-dan ölmüş kimi qeydə alınmasına razılıq versinlər. Bu cür uydurmalar peyvəndin əleyhinə olanlar arasında çox populyardır. Onlar hesab edirlər ki, hamını məcburi şəkildə peyvənd etmək üçün hakimiyyət orqanlarına xəstəlik və ölüm göstəricilərini süni şəkildə artırmaq lazımdır. Bu insanların təfəkküründə peyvəndlər nə isə pis bir xəstəliyə qəsdən yoluxdurmağa xidmət edir, sonsuzluğa səbəb olur, “erməni genini” öldürür, məhv edir və korlayır.

Bu cür mühakimə şəhər dəliləri üçün səciyyəvidir, lakin Ermənistanda belələri o qədər çoxdur ki, onların səsi KİV-ə çatır, Səhiyyə Nazirliyi isə tamamilə aşkar olan belə cəfəngiyyata münasibət bildirməyə və onu təkzib etməyə məcburdur. Başqa sözlə desək, digər ölkələrdə müzakirə edilməsi qəbahət sayılan məsələlər Ermənistanda daim gündəlikdədir.

Ən kədərlisi odur ki, bəzi hallarda koronavirus haqqında dezinformasiyanı həkimlər özləri yayırlar. Onlar bunu şüurlu surətdə, yoxsa peşə yararsızlığı nəticəsində edirlər - məlum deyil. Məsələn, Yerevan Ağsaqqallar Şurasının keçmiş üzvü, həkim təhsili almış Marine Xaçatryan deyir ki, koronavirus çox uzaq məqsədlər üçün yaradılmış bioloji silahdır.

Marine Xaçatryan SARS CoV-2-nin laboratoriyada yaradılması barədə dəfələrlə təkzib olunmuş nəzəriyyəni şərh edərək deyir: “Bizə qarşı bioloji silah tətbiq edə bilərlər. Bu virusun maraqlı tərkibi var: o, dörd elementdən, xalq arasında QİÇS virusu adı ilə məşhur olan virus parçasından ibarətdir. Yəni bu virusun dörd parçası çox ehtimal ki, laboratoriya şəraitində kəsilib götürülüb”.

Dezinformasiya təkcə ayrı-ayrı insanlar tərəfindən deyil, bütöv təşkilatlar və KİV tərəfindən də yayılır. Məsələn, ABŞ Dövlət Departamenti xətti ilə ayrılmış qrant vəsaiti hesabına açılmış “Medmedia.am” saytı ətrafında bu günlərdə qalmaqal yaranıb. Həkim Gevork Qriqoryanın idarə etdiyi bu sayt sözün hərfi mənasında yuxarıda sadalanan bütün sui-qəsd nəzəriyyələrinin - həm statistikanın şişirdilməsi, həm də qərəzli peyvəndlər barədə uydurmaların yayılması üzrə ixtisaslaşır.

Bundan əlavə, Qriqoryan həm də “COVID-19 Ermənistan: faktlar toplayan qrup” təşəbbüsünün həmtəsisçisidir və artıq “ekspertlər” təsisatı vasitəsilə öz nəzəriyyələrini kütlələr arasında yayır. Nəticədə bu məlumatlar minlərlə insana çatdırılır və sosial şəbəkələrdə yüz minlərlə baxış toplayır. Beləliklə, kütləvi məsuliyyətsizlik və konspiroloji nəzəriyyələrə inam koronavirusun yayılması üçün ən münbit şərait yaradır. İnsanlar ölümcül təhlükəli xəstəliyə qarşı mübarizəyə qoşulmaqdan sadəcə imtina edir və hər kəs bunu etməmək üçün bir bəhanə tapır.

Ermənistan əhalisinin təhsilinin aşağı səviyyədə olması da özünü göstərir - bu ölkədə, ümumiyyətlə, virusu bakteriyadan, bakteriyanı göbələkdən fərqləndirə bilənlər azdır, həkimə müraciət etmək də çox populyar məşğələ deyil.

Əksər hallarda nəticə eyni olur - xəstələr xalq tərəfindən yoxlanılmış resept üzrə hərəkət edirlər: hər hansı xəstəliyin hər hansı əlamətləri yarandıqda antibiotik içirlər. Ermənistanda artıq iki ildir ki, antibiotiklərin sərbəst satışı qadağan edilib, amma reallıqda bu qadağa işləmir. İnsanlar həbləri qəbul edir, amma bilmirlər ki, antibiotiklər koronavirusun müalicəsinə kömək etmir. Onlar sağaldıqlarını güman edərək küçəyə çıxırlar.

### İtirilmiş imkanlar

Əgər konspiroloqların təhlükəli fəaliyyətinin qarşısı vaxtında alınsaydı, bəlkə də onlar özlərini daha təvazökar aparardılar, amma belə olmadı. Martın 1-də, Ermənistanda ilk yoluxma halı aşkar edilən gün ölkənin ən populyar “Facebook”-blogeri olan Paşinyan birbaşa efirdə epidemiyanı ələ salaraq soruşurdu: “Ümumiyyətlə, bu koronavirus kimin itidir?”

Bundan iki gün əvvəl Ermənistan Səhiyyə Nazirliyinin rəhbəri Arsen Torosyan sosial şəbəkədə iddia edirdi ki, virus o qədər təhlükəli deyil ki, ona görə ciddi tədbirlər elan edilsin. Həmin vaxt ÜST COVID-19-un yayılmasını beynəlxalq miqyaslı fövqəladə vəziyyət kimi tanımışdı, pandemiyanın və beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyətin elan edilməsinə 2 həftə qalırdı.

ÜST ilk dəfə beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyəti 2002-2003-cü illərdə qeyri-tipik SARS Cov pnevmoniyası dövründə elan etmişdi. Son 10 ildə belə rejim cəmi bir neçə dəfə “donuz qripi” A(H1N1) epidemiyası, poliomielit, “Ebola” qızdırması, Zika virusu və SARS Cov-2 koronavirusu ilə əlaqədar tətbiq edilib.

Virus ilk real problem oldu ki, Paşinyan komandası onu əvvəlki hakimiyyət orqanlarının üzərinə yıxa bilmədi. Epidemiyanı lazımınca maliyyələşdirilməyən və lazımınca inkişaf etməmiş səhiyyə sisteminin bütün imkanlarını səfərbər etməsi ilə izah etmək cəhdləri uğursuz oldu. Onda hakimiyyət orqanları başqa yol seçdilər.

Onlar əvvəlcə koronavirusun təhlükəli olmasını əlaqələndirilmiş şəkildə inkar etdilər və hər şeyi zarafata salmağa çalışdılar. O vaxt ölkədə yuxarıdan idarə edilən mühüm siyasi proseslər gedirdi. Məsələn, Konstitusiya Məhkəməsinin tərkibinin dəyişməsinə koronavirus mane ola bildi. Beləliklə, Səhiyyə Nazirliyinin rəhbəri Torosyan ÜST-ün rəsmi məlumatına birbaşa zidd olan bəyanatlar verməkdə davam edirdi. Məsələn, aprelin 14-də o, bir daha təkrar etdi ki, koronavirus çox təhlükəli infeksiya deyil, çünki “elə infeksiyalar məlumdur ki, onlardan ölüm halları təqribən 50 faiz təşkil edir”.

İyunun 10-u üçün olan rəsmi məlumatlara görə, dünyada COVID-19-dan ölüm hallarının orta sayı 5,6 faiz təşkil edir. Bu göstərici ölkələrdən asılı olaraq fərqlənir. Məsələn, İtaliyada o, 14,4 faizdən yüksəkdir, Rusiyada 1,2 faiz həddindədir.

Torosyan həm sözdə, həm də əməli işdə fərqləndi. Mayın 7-də onun günün günorta çağında naməlum adamlarla bir kafedə şəklini çəkdilər - onların üzündə maska və ya hər hansı aşkar görünən qoruyucu vasitələr yox idi. Təbii ki, Səhiyyə Nazirliyinin rəhbərinə etirazlar bildirildi, idarənin mətbuat katibi bu etirazlara o qədər də gizlədilməyən əsəbiliklə cavab verdi.

“Biz şadıq ki, siz nazirin bütün hərəkətlərini izləyirsiniz, əgər siz son 3 ayda 24/7 rejimində görülən işləri də belə ruh yüksəkliyi ilə izləsəydiniz, pis olmazdı”, - sözlərini yazan mətbuat katibi daha sonra əlavə etmişdi ki, Torosyan bu fotoşəkildə öz müavinləri ilə birlikdədir, yəni o, vaxtını boş yerə sərf etmir. Nəyə görə Səhiyyə Nazirliyinin başçısı pandemiyanın şiddətli vaxtında fərdi qoruyucu vasitələrdən istifadə etmir, ətrafdakılara pis nümunə göstərir və ümumiyyətlə, təhlükənin sovuşduğuna görə deyil, çarəsizlikdən açılmış kafelərə nə üçün gedir, - mətbuat katibi bunları izah etməyib.

Baş nazir özü də vətəndaşlara pis nümunə göstərirdi. Məsələn, translyasiyaların birində o deyirdi ki, koronavirusa simptomsuz yoluxmaq “təbii peyvənd” kimidir və özü də belə xəstələnmək istərdi. May ayının axırlarında ixtiyar sahibləri və Paşinyan Qarabağda təntənəli şam yeməyində görünmüşdü. Onlar pandemiyanın şiddətli vaxtında pozulması mümkün olan bütün qaydaları pozurdular. Yeri gəlmişkən, orada ofisiantlar vardı - Ermənistanın baş naziri özünün yoluxmasının mümkün səbəbi kimi bu peşənin nümayəndələrini göstərmişdi.

### Uğursuz lokdaun

Təəccüblü deyil ki, Ermənistanda mart ayında elan edilmiş ikihəftəlik sərt karantin və hələ də saxlanılan digər məhdudiyyətlər heç bir fayda vermədi, yalnız iqtisadiyyata zərbə vurdu. Karantin rejimini pozanlara qarşı hər hansı ciddi sanksiyalar tətbiq edilmirdi, pozuntuların miqyası isə o qədər böyük idi ki, əgər polis hər bir məsuliyyətsiz vətəndaşdan cavab tələb etsəydi, ölkə əhalisinin yarısını saxlamaq lazım gələrdi.

Ermənistanda COVID-19 testlərinin 30-40 faizi müsbət nəticə verir.

Paşinyanın milli fəlakət haqqında şivənçi bəyanatlarından sonra polis tam fəaliyyətsizlik vəziyyətindən kəskin şəkildə çıxdı və digər ifrat mövqe tutdu. İndi 4-5 nəfərlik naryadlar küçələrdə insanları saxlayır, onların qollarını burur, yerə yıxır, onlar qışqırmağa başlayana qədər boğurlar. Təəssüf ki, onlar ABŞ-ı irqi müharibə həddinə çatdırmış amerikalı həmkarlarının kədərli təcrübəsini nəzərə almırlar.

Sadə amerikalılar kimi ermənilər də təkcə polis özbaşınalığına görə çaşıb qalmayıblar. Ölkədə məhdudiyyətlər tətbiq etmək üçün elə ilk cəhd zamanı sosial və iqtisadi vəziyyətdən narazı insanların lokal etirazları başladı. Çox zəif vəziyyətdə olan Ermənistan iqtisadiyyatı ikinci lokdauna davam gətirəcəkmi - bu, çox böyük sualdır.

Hakimiyyət orqanları xalqı, xalq isə hakimiyyət orqanlarını təqsirləndirir, lakin vəziyyət dəyişmir. Hər iki tərəf təqsirkardır və tərəflərin heç biri nəinki səhvlərini düzəltmək, heç olmasa onları etiraf etmək istəmir. Digər tərəfdən, hər gün koronavirus testlərinin 30-40 faizi müsbət nəticə verir. Bu rəqəmlər yoluxanların sayının çox yüksək olmasına və deməli səhiyyə sisteminin tezliklə iflasa uğrayacağına və bunlardan heç də az kədərli olmayan başqa nəticələrə dəlalət edir.

# “Pravda.ru”: Koronavirus Paşinyanın vədlərini puç edib

Rusiyanın “pravda.ru” saytında MDB Ölkələri İnstitutunun Ermənistan filialının direktoru Aleksandr Markarovun Ermənistanda vəziyyət barədə müsahibəsi bu başlıq altında dərc edilib. AZƏRTAC həmin müsahibəni təqdim edir.

* * *

### Paşinyanın planları puç olub

*- Aleksandr, Ermənistanın indiki hakimiyyəti praktiki olaraq yaxşılığa doğru heç bir dəyişiklik etməyib. Buna baxmayaraq, əhali Nikol Paşinyanı populist hesab etmirmi? Yoxsa adi Ermənistan vətəndaşı öz həyatında (əlbəttə, koronavirusa qədər) müəyyən yaxşılaşma hiss edib?*

- Bu sualın cavabı kimdən soruşmaqdan və nəyi populizm hesab etməkdən asılıdır. Yəqin ki, əhalinin müəyyən kateqoriyası bəzi yaxşılaşma hiss edə bilib. Söhbət kiçik və orta biznesin bir hissəsi barədə gedə bilər, onlara daha artıq fəaliyyət azadlığı verilib, hərçənd indiyə qədər vergidən başqa bu azadlıqları kimin və nəyin məhdudlaşdırması aydın deyil. Əhalinin bir hissəsinin əməkhaqlarına əlavələr edilib. Bəziləri üçün bu artım ciddi, digərləri üçün cüzi ola bilər.

*Lakin yəqin ki, əsas məsələ əhalinin bütövlükdə iqtisadi və sosial inkişaf perspektivlərini necə təsəvvür etməsindən və indi istiqaməti düzgün və inkişaf dinamikasını yetərli hesab edib-etməməsindən ibarətdir.*

Hər halda əvvəllər təqdim edilən rəsmi statistika və sosiologiya göstərirdi ki, əhalinin əksəriyyətinin fikrincə, cəmiyyət düzgün istiqamətdə hərəkət edir. Aydındır ki, koronavirus və onun doğurduğu iqtisadi dəyişikliklər ölkədə iqtisadi və sosial şəraitə təsir göstərməyə bilməz. Həm də bu təsir koronavirusdan əvvəl mövcud olan azacıq müsbət məqamlarla müqayisədə daha əhəmiyyətli ola bilər.

**İri biznes problemləri qalır.** Söhbət investisiyaların artırılması, ixracın artırılması imkanları və bütövlükdə, inkişaf barədə gedirdi. Lakin vəziyyət dəyişmədi. İndi isə əsas məsələ yəqin ki, mövcud mövqeləri qoruyub saxlamaqdır, çünki münaqişə və məhkəmə hakimiyyətinin anlaşılmaz fəaliyyəti ilə bağlı qeyri-müəyyənlik şəraitində iri investisiyalar ola bilməz.

**Buna görə sabitliyi yalnız yuxuda görmək olar.** Təbii ki, biznes bu vəziyyəti görmək istəməzdi. Buna müvafiq olaraq, heç olmasa müəyyən qədər sabitlik və müəyyənlik olmadıqda, ciddi iqtisadi inkişaf barədə danışmaq çətindir, amma xalq buna çalışırdı. Haradansa peyda olmuş koronavirus və yarasa hətta ehtimal edilən perspektivləri də öz qanadları altına aldı.

*- Paşinyanın seçkiqabağı vədlərindən biri Ermənistan diasporundan investisiyalar cəlb etmək barədə idi. Diaspor o qədər də bədxərclik etmədi.*

- Məsələ də ondadır ki, bu investisiyalar yalnız qismən həyata keçirildi. Gözlənilən həcmə heç yaxın da gəlmədilər. Hələ 2018-ci ilə qədər başlanmış layihələr vardı, onlar başa çatdırıldı və müəyyən yeni iş yerlərinin açılması ilə nəticələndi. Bu barədə daim çox böyük bir nailiyyət kimi danışırlar. **Əslində isə, həmin layihələrin çoxu sadəcə kölgə iqtisadiyyatı vəziyyətindən çıxarıldı.**




Diasporun yuxudan oyanacağı, Ermənistana üz tutacağı, milyonlarla dolların üçüncü respublikaya axacağı barədə gözləntilər doğrulmadı. Buna oxşar heç bir hadisə baş vermədi. Bu barədə böyük etirazlar yoxdur. Sadəcə biznesmen hər halda rasional adamdır, buna görə də prosesin başa çatmasını gözləyir, axı, necə deyərlər, bərədə atları dəyişməzlər.

Hər halda bərəni keçmək lazımdır. Çayı üzüb keçəndən sonra prosesin uzunmüddətli olacağına ümid bəsləmək olar. Bərədən keçmə prosesində isə qarşı sahilə çatıb-çatmayacağınız barədə müəyyənlik yoxdur.

### İnsanların peşmançılığı artır

*- Belə çıxır ki, ermənilər hələ Paşinyana görə çox peşman olmayıblar, hələ ümidləri qalır. Hökumətin hansısa konkret planları, oriyentirləri, yol xəritələri varmı?*

- Bəli, özü demişkən, “100 gün” və “500 gün” planları vardı. Yəni hətta konkret müddətlər göstərilmişdi, lakin həmin müddətlər artıq keçib. Buna görə də ümidsizliyə qapılmış insanların sayı artır və çox güman ki, əgər bundan sonra da nəticə olmasa, vaxt keçdikcə daha da artacaq. Müəyyən müddət ərzində çox böyük planlar barədə danışmaq olar, lakin əgər bunlar yalnız gurultulu fraza kimi qalsa, konkret nəticələr olmasa, məyusluq yaranır.

Məyusluq olanda isə aydındır ki, insanlar düşdüyü vəziyyətdən çıxmaq üçün yeni xilaskar axtaracaqlar. Yaxın zamanda ÜDM artımını təmin edə biləcək real planlar yoxdur və bu vəziyyətdə ola da bilməz. Deməli, ümidsizliyin artması ehtimalı çoxalır.

İnsanların çoxu Paşinyana böyük ümid bəsləyirdi. Əgər o, heç bir əhəmiyyətli iş görə bilməsə, ola bilsin ki, məyusluq yaranmayacaq, insanlar sadəcə siyasi və ya hər hansı başqa həyata marağı, ümumiyyətlə, itirəcəklər. Nələr baş verməsi heç kəsin vecinə olmayacaq. Bu isə ən dəhşətli vəziyyətdir.

# Paşinyan hökumətinin istefası tələb olunur

## Ermənistanda hakimiyyətdaxili gərginlik ən yüksək həddə çatıb

Ermənistanda koronavirus pandemiyası ucbatından getdikcə ağırlaşan vəziyyət hakimiyyət üçün də əlavə problemlərə yol açmaqdadır. Hətta fikirlər səslənir ki, bu gedişlə Nikol Paşinyan yaxın tezlikdə iqtidardan devrilə bilər. Yerli medianın yazdığına görə, ölkədə son hadisələr fonunda hakimiyyət artıq Nikol Paşinyanın əlindən sürüşüb gedir. Bildirilir ki, baş nazir komandasında birliyi belə təmin edə bilmir. Hakimiyyətin müxtəlif qanadları arasında gərginlik yüksək həddə çatıb.

“Fakt” qəzeti yazır ki, Paşinyan niyə bu qədər tez - koronavirusa yoluxduğunu elan etdikdən bir həftə sonra sağaldı? Və o dəqiqə ciddi ölkədaxili siyasi manevrlərə başladı? Qeyd olunur ki, son aylarda Paşinyanın reytinqi sürətlə azalmaqdadır. Səbəb hakimiyyətin koronavirusla əlaqəli vəziyyətə nəzarət edə bilməməsidir.

Vurğulanır ki, Ermənistanda koronavirusun yayılmasında və vəziyyəti çətinləşdirməkdə maraqlı olan hər hansı bir siyasi qüvvə yoxdur. Problem hakimiyyətdəki çatışmazlıqları təhlil etmək, anlamaq və düzəltməkdir. Lakin bunun əvəzinə Paşinyan nifrət yaymağa çalışır və hətta tənqidçilərini hədələyir.

O da qeyd olunur ki, Paşinyanın mövqeyinə niyə bu qədər bağlı olması barədə müxtəlif fikirlər var, o, baş nazir vəzifəsinin müddətini uzatmaq üçün istənilən addımı atmağa hazırdır. Ancaq “xalqın etimadından istifadə etmək” artıq aktual deyil.

Bu arada yayılan məlumatlara əsasən, məhkəmə sahəsində də ciddi dəyişikliklər gözlənilir. Belə ki, Ermənistan hakimiyyəti Ali Məhkəmə Şurasının sədri Ruben Vardazaryandan istefa ərizəsi yazmağı və vəzifəsini tərk etməyi tələb edib. Yerli medianın yazdığına görə, buna səbəb Vardazaryanın Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyanla yaxın münasibətlərinin olmasıdır.

“Lragir” nəşri yazır ki, buna görə də hakimiyyət onu qəbul etmir və yaxın günlərdə getməli olduğu artıq aydındır: “Heç kimə sirr deyil ki, hakimlər, o cümlədən Ali Məhkəmə Şurası üzvləri qondarma yoxlamaya məruz qalacaqlar və ya səlahiyyətlilərin dediyi kimi əmlakları, fəaliyyətləri yoxlanılacaq. Ancaq onlar bu qədər gözləmək istəmirlər və sistemi başqa üsullarla “təmizləməyə” çalışırlar”.

Ermənistan hökuməti isə pandemiya fonunda vətəndaşları sosial-iqtisadi problemlərin həll olunacağına inandırmağa çalışır. Ancaq verilən vədlər yalandır. Qeyd olunur ki, sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılması ümidverici deyil. Çünki ölkədə ən azından qanunlara uyğun tədbirlər görülmür.

Xatırladaq ki, “Çiçəklənən Ermənistan” partiyasının lideri Qaqik Tsarukyan rəhbərlik etdiyi partiya fəalları qarşısında çıxış edərək demişdi ki, koronavirus pandemiyası zamanı erməni baş nazir hökumətin qarşısına qoyulan vəzifələri həll edə bilmədiyini nümayiş etdirdi. O vurğulamışdı ki, Paşinyan ölkə iqtisadiyyatı, onun irəli getməsi üçün hələ də heç nə edə bilməyib. “Qolos Armenii” saytı da nə Paşinyan, nə də Ermənistan parlamentinin əksəriyyətini təşkil edən “Mənim addımım” bloku üzvlərinin respublika büdcəsinə investisiya cəlb etmək üçün heç bir strategiya təqdim etmədiklərini etiraf etmək məcburiyyətində qalıb. Yazılır ki, əksər blok üzvləri əvvəlki hakimiyyət rəsmilərindən qalan xarici investorlara bürokratik əngəlləri nəinki aradan qaldıra bildilər, bəziləri hətta onun aludəçisinə də çevrildilər. Təbii ki, Paşinyan və onun ailə üzvləri də respublika büdcəsinin paylanmasında öz paylarını götürmüş oldular.

Bununla belə, Tsarukyan və ona yaxın erməni milyarderlərinin Ermənistanın maliyyə toxunulmazlığından narahat olduqlarını söyləmək hələ tezdir. Çünki bu gün Ermənistan iqtisadiyyatının bir çox sahələri hələ də inhisardadır.

Bütün bunlar Ermənistanı qarşıdakı dövrdə daha çətin günlər gözlədiyindən xəbər verir.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# XİN: Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsinə cəhd göstərən siyasəti uğursuzluğa məhkumdur

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən üçüncü magistral yolun tikintisi ilə bağlı açıqlama yayıb.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan açıqlamada deyilir: "Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə Ermənistanı ölkəmizin hazırda işğal altında olan Dağlıq Qarabağ bölgəsi ilə birləşdirən növbəti, üçüncü yolun çəkilişi işğalçı Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində həyata keçirilən qeyri-qanuni fəaliyyətin bir hissəsidir. Ermənistanın bu addımı təcavüzkar ölkənin Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin işğalını möhkəmləndirmək məqsədi güdərək, həmçinin bu ərazilərdə demoqrafik vəziyyətin məqsədyönlü şəkildə dəyişdirilməsi, qanunsuz məskunlaşdırmanın davam etdirilməsi, təbii sərvətlərin talan edilməsi, istismarı və daşınmasının həyata keçirilməsinə xidmət edə bilər.

Xarici İşlər Nazirliyinin hələ 2016-cı ildə hazırladığı "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatı, eləcə də 2019-cu ildə Azərbaycan XİN və "Azərkosmos" ASC tərəfindən hazırlanmış və Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qanunsuz fəaliyyətinin peykdən çəkilmiş təsvirlərini əks etdirən hesabatlarda işğalçı ölkənin həyata keçirdiyi qeyri-qanuni fəaliyyəti təsdiq edən kifayət qədər dəlillər göstərilib. Bu dəlillər Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin işğal olunmuş hissəsi boyunca təbii sərvətlərin qeyri-qanuni daşınmasının həyata keçirildiyini və Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz istehsal olunmuş məhsulların, eləcə də təbii sərvətlərin həmin ərazilərdən beynəlxalq bazarlara daşınması üçün Ermənistanın nəqliyyat məntəqəsi rolunu oynadığını üzə çıxarır. Beləliklə də, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə üçüncü magistral yolu çəkməsinin başlıca səbəbi işğalçı ölkənin məhz qeyri-qanuni fəaliyyətini davam etdirərək işğalı möhkəmləndirmək və Azərbaycan ərazilərinin ilhaqını həyata keçirmək niyyətini aşkar şəkildə göstərir.

Ermənistanın qanunsuz əməlləri onun öz beynəlxalq öhdəliklərinə ziddir, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinin, həmçinin 1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarının kobud şəkildə pozulmasıdır. Məlumdur ki, beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzkar siyasəti ilə bağlı birmənalı mövqeyini başda BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri olmaqla, bu günədək qəbul olunmuş çoxsaylı qərar və sənədlərdə əks etdirib. Eyni zamanda Ermənistanın işğal etdiyi ərazilərdə qeyri-qanuni fəaliyyətini pisləyən, habelə işğal nəticəsində yaranmış vəziyyətin saxlanılması üçün iqtisadi fəaliyyət də daxil olmaqla hər hansı yardım göstərilməsindən çəkinməyə çağıran qətnamə və bəyanatlar İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən qəbul olunub. Ermənistanın qanunsuz fəaliyyətinə münasibətdə Avropa Parlamentinin üzvləri tərəfindən birgə bəyanatın qəbul olunması isə işğalçı ölkəyə ünvanlanmış konkret çağırış kimi dəyərləndirilməlidir.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsinə cəhd göstərən siyasəti uğursuzluğa məhkumdur. Münaqişənin davamlı həllinə nail olmağın yeganə yolu BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində tələb edildiyi kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ regionu və digər işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasının təmin olunmasıdır.

Azərbaycana qarşı törədilən təcavüz siyasətinin, Azərbaycan ərazilərinin hərbi işğalda saxlanılması və bu ərazilərdə etnik təmizləməyə məruz qalan yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının pozulmasının, eləcə də bu torpaqlarda həyata keçirilən bütün qeyri-qanuni fəaliyyətin tam məsuliyyəti Ermənistanın üzərindədir. İşğalçı ölkə bu əməllərinin cavabını gec-tez verəcəkdir".

# Pandemiya dövründə ölkədə enerji təchizatı yüz faiz təmin olunub və olunacaq

24 saat növbəli iş prinsipi ilə fəaliyyət göstərən və bir an belə elektrik enerjisinin istehsalını, o cümlədən ötürülməsini dayandırmayan "Azərenerji" ASC tabeliyindəki müəssisələrdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirməklə yanaşı, istehlakçıların dayanıqlı və keyfiyyətli enerji təminatı üçün bütün lazımi addımları atır.



"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, pandemiya elan edilən gündən bəri, istər qaydalar yumşaldılanda, istərsə də sərt karantin elan olunan günlərdə elektrik stansiyası, sistem əhəmiyyətli yarımstansiya və yüksək gərginlikli elektrik xətlərində və bununla da enerji təchizatında heç bir problem yaranmayıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qaydalarına uyğun olaraq sərt karantin günlərində də işləməsi vacib sayılan qurum olaraq "Azərenerji"nin əksər əməkdaşları iş başında olublar. Üstəlik, bu müddət ərzində pandemiyanın hökm sürdüyü qonşu ölkələrə də enerji ixracı lazımi səviyyədə həyata keçirilib.

## B İ L D İ R İ Ş

### Lənkəran Dövlət Universiteti Elmi kitabxana və 4 saylı tədris korpusunda əsaslı təmir işlərinin görülməsi üçün layihə smeta sənədlərinin hazırlanması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18.06.2020-ci il saat 18:00-dək qəbul olunur.

Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov 50.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### Lənkəran Dövlət Universiteti nəqliyyat vasitəsinin alınmasını kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18.06.2020-ci il saat 18:00-dək qəbul olunur.

Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov 50.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 01 may 2020-ci il tarixdə "Azərbaycanda KOB subyektləri arasında müxtəlif istiqamətlər üzrə keçirilməsi nəzərdə tutulan sorğu xidmətinin satın alınması" ilə bağlı elan edilmiş açıq tender müsabiqəsi üzrə malgöndərənlərin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" qanunun 30.2-ci maddəsinə əsasən, tender təklifi ilə bank təminat sənədlərinin qəbulu 16 iyun 2020-ci il saat 16:00 tarixədək uzadılmışdır. İddiaçıların təklifləri 17 iyun 2020-ci il saat 16:00 tarixdə açılacaqdır.

***Tender komissiyası***

# Avropa Parlamentindən Ermənistana sarsıdıcı zərbə

## Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın sərhədləri çərçivəsində həll olunmalıdır

Azərbaycan dünya səviyyəsində mövqeyini hər keçən gün daha da gücləndirir. İndi təkcə Cənubi Qafqazda yox, onun sərhədlərindən kənarda da böyük coğrafi məkanda, xüsusən də yeni enerji layihələri, marşrut yolları cızılarkən mütləq ölkəmizin maraq və istəkləri nəzərə alınır. Çünki Azərbaycan artıq bu geosiyasi məkanda aparıcı ölkələrdən biri kimi çıxış edir. Qeyd olunanlar 30 ildən çoxdur ki, davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hadisələrin inkişaf istiqamətinə də təsirsiz ötüşməyərək yeni bir situasiyanın yaranmasına səbəb olub.

Məsələyə diplomatiya, beynəlxalq hüquq kontekstindən yanaşıldıqda aydın olur ki, Ermənistan, sözün əsl mənasında, küncə sıxışdırılmış vəziyyətdədir və Azərbaycanın apardığı siyasət nəticəsində işğalçı dövlətin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə yer qalmayıb.

İndi dünya birmənalı şəkildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir, beynəlxalq hüquq normalarına uyğun olaraq bu ölkəni zəbt etdiyi əraziləri azad etməyə çağırır. BMT, Avropa Parlamenti, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri müvafiq qətnamələrdə, o cümlədən münaqişənin dinc yolla çözülməsi üçün vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun irəli sürdüyü həll variantlarında da Ermənistanın işğalçı dövlət kimi təqdim olunması həmin ölkənin diplomatiya müstəvisində artıq nokaut vəziyyətinə düşdüyünü təsdiq edən faktorlardır.

Bu günlərdə Avropa Parlamentinin (AP) Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Besesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurandın Ermənistan və Dağlıq Qarabağı birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı birgə bəyanatı da bunu bir daha əyani surətdə təsdiq etdi. Bəyanatda Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinə çağırış əks olunub. Qeyd olunur ki, yaxın vaxtlarda Ermənistan və Dağlıq Qarabağı birləşdirən üçüncü avtomobil yolunun inşasının başlayacağı elan edilmişdi. Bu yeni yol infrastrukturu işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarını keçərək Ermənistanın Qafan rayonunu Dağlıq Qarabağın Hadrut rayonu ilə birləşdirəcək: "Prinsip etibarı ilə biz Şərq Qonşuluğundakı regional əməkdaşlığı, əlaqələri və insanlar arasındakı əlaqələri inkişaf etdirən layihələri dəstəkləyirik. Lakin bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan qəbul edilib və beynəlxalq hüquq pozulub. Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Buna görə də bu təşəbbüsdən çox təəssüflənirik, çünki bu, etimad, sülh və barışıq mühiti yaratmağa kömək etmir. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərinə və onların 2009-cu ildə təsdiqlənən Əsas Prinsiplərinə dəstəyimizi bir daha bəyan edirik. Bu vasitəçiliyin uğur qazanması üçün biz Ermənistan və Azərbaycan hakimiyyətlərini Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinə dair danışıqlarda öz öhdəliklərini gücləndirməyə çağırırıq".

Göründüyü kimi, Avropa institutları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində respublikamızın ədalətli mövqeyini dəstəkləyirlər. "Azərbaycanın işğal altında olan əraziləri" ifadəsi isə Avropa təsisatları tərəfindən işğal faktının təsdiq olunduğunu əyani şəkildə göstərir.

Azərbaycan diplomatiyasının Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar uğurlarından biri isə beynəlxalq miqyasda Ermənistana işğal etdiyi ərazilərdən öz silahlı qüvvələrini çıxarmasına dair müraciətlərin sayının çoxalması və bunun konkret rəsmi sənədlərdə əksini tapmasıdır. Bu kontekstdə isə 2010-cu ilin may ayında Avropa Parlamentinin Cənubi Qafqazla bağlı qəbul etdiyi "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələb" adlı qətnamə də xüsusi diqqət cəlb edir. Bolqarıstandan olan deputat Yevgeni Kirillovun hazırladığı qətnamədə bildirilir ki, Azərbaycan, Ermənistan və Gürcüstan 2004-cü ildən Avropa Qonşuluq Siyasəti çərçivəsində Avropa İttifaqı ilə tərəfdaşlıq etsələr də, bölgə ilə bağlı kompleks regional strategiya mövcud deyil. Bildirilir ki, Avropa İttifaqı Dağlıq Qarabağ və Gürcüstandakı münaqişələrlə əlaqədar bu regionla münasibətində mürəkkəb geosiyasi situasiya ilə üzləşir, həmçinin Ermənistan-Türkiyə münasibətlərində də gərginlik mövcuddur. Regionda münaqişəli situasiyaların qəbulolunmazlığını bildirən Avropa Parlamenti Ermənistanı öz silahlı qüvvələrini işğal etdikləri Azərbaycan torpaqlarından çıxarmağa çağırır. Qətnamədə bildirilir ki, münaqişələrin mövcudluğu iqtisadi və sosial inkişaf qarşısında ən böyük maneədir. Bununla yanaşı, Avropa deputatları Dağlıq Qarabağ münaqişəsi zamanı və ya münaqişə ilə əlaqədar evlərini tərk edərək yüz minlərlə qaçqın və məcburi köçkünlərin didərgin düşmələri faktı və onların geri qayıtmaq hüquqları da daxil olmaqla, hüquqlarının inkar olunması ilə əlaqədar öz ciddi narahatlıqlarını bildirirlər və bu hüquqların birmənalı və qeyd-şərtsiz tanınmasına çağıraraq onların təcili reallaşdırılmasını xüsusilə qeyd edirlər.

Beləliklə, Avropa Parlamenti qarşıdakı dövr üçün münaqişənin həlli cəhdlərinin sürətləndirilməsinə, beynəlxalq səviyyədə əsası olmayan və zor gücünə yaradılmış status-kvonun qorunub saxlanılmasından imtina etməyə çağıraraq Ermənistanın silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmasını tələb edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

## *açıq tenderə dəvət edir*

- Pensiya işlərin arxivləşdirilməsi üzrə müvafiq sənədlərin elektronlaşdırılmasına dair iş və xidmətlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 50 (əlli) manat**

**'Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri - notarial qaydada təsdiq olunmuş;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış-11.06.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - 2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı - 11.06.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;
- iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla);
- bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;
- tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 07.07.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 15.07.2020-ci il 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 16.07.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## ƏDL Liviyanın legitim hökumətini dəstəkləyir



Liviya milli barışıq hökuməti (MBH) bu ölkədə Ərəb Dövlətləri Liqası (ƏDL) üçün yeganə legitim hakimiyyət mənbəyidir. Bu bəyanatla ƏDL Baş katibinin müavini Hüsam Zəki çıxış etmişdir.

Zəki vurğulamışdır ki, MBH Mərakeşdə imzalanmış Sxeyrat sazişinə görə Liviyanın qanuni hökumətidir. O xatırlatmışdır ki, MBH Afrika İttifaqı, ƏDL, İslam Əməkdaşlıq Təşkilatı və Birləşmiş Millətlər Təşkilatı səviyyəsində Liviya xalqının maraqlarının qanuni təmsilçisi kimi tanınmışdır.

ƏDL Baş katibinin müavini Liviya münaqişəsi ilə əlaqədar Berlin konfransının yekunlarını da şərh etmişdir: "Danışıqlarda istənilən nəticələr əldə etmək mümkün olmadı. Böhranı dinc vasitələrlə tənzimləmək üçün tərəflərin mövqelərini bir-birinə yaxınlaşdırmağın vaxtı gəlib çatmışdır". Zəki nəzərə çarpdırmışdır ki, Türkiyə qoşunları Liviyanın qanuni hökuməti ilə razılaşma əsasında bu ölkənin ərazisinə daxil olmuşdur.

## "Türk Hava Yolları" beynəlxalq uçuşları bərpa etdi




"Türk Hava Yolları" aviaşirkəti koronavirus pandemiyası fonunda mart ayının axırlarında dayandırdığı beynəlxalq uçuşları İstanbul hava limanından bərpa etmişdir. Bu barədə yerli KİV xəbər verir.

Türkiyədə daxili uçuşlar iyunun 1-də başlamış, beynəlxalq reyslərin bərpası isə 10 gün təxirə salınmışdı. Dünəndən etibarən "Türk Hava Yollar"ı Almaniya (Düsseldorf, Münhen və Frankfurt), İngiltərə (London) və Hollandiyaya (Amsterdam) uçmağa başlamışdır.

İstanbul hava limanının terminalına yalnız biletli sərnişinlər buraxılırlar. Sərnişinlərin temperaturu məcburi qaydada ölçülür. Sosial məsafə saxlanılır. Sərnişinlərdən və hava limanının işçilərindən maska taxmaq tələb olunur.

## BMT ABŞ-da polis zorakılığını pislədi



BMT-nin insan hüquqları üzrə müstəqil ekspertləri ABŞ-da polislərin afroamerikalı Corc Floydu öldürməsindən sonra başlamış genişmiqyaslı dinc etiraz aksiyalarının amansızlıqla yatırılmasını pisləmişlər. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

BMT-nin xüsusi məruzəçiləri ABŞ hüquq mühafizə orqanlarında irqi ayrı-seçkiliyin aradan qaldırılması üçün təsirli tədbirlər göstərməyə çağırmışlar: "Dinc nümayişlər zamanı polisin sərt davranışı və ifrat güc tətbiq edilməsi heç bir halda yolverilməzdir. Gözyaşardıcı qazdan istifadə və dinc nümayişçilərin döyülməsi onları susmağa məcbur etməyəcək. Bu, yalnız ABŞ polisində islahat keçirməyin və irqi ədalət uğrunda mübarizənin aktuallığını təsdiqləyir".

## ABŞ Konqresi Rusiya, Çin və İrana qarşı yeni sanksiyaları müzakirə edir

Rusiya ABŞ-ın maraqlarına ziyan vurur və "Liviyadan Suriyaya, İrana, Ukraynaya, İngiltərənin Solsberisinədək, Aralıq dənizindən Cənubi Çin dənizinədək" demokratik beynəlxalq nizamı sarsıdır. Respublikaçılar Partiyasının ABŞ Konqresindəki nümayəndələri belə hesab edirlər.

Respublikaçı konqresmenlərin təqdim etdiyi "Amerikanın möhkəmləndirilməsi və qlobal təhlükələrə qarşı mübarizə" adlı hesabat Rusiya, Çin və İrandan qaynaqlanan təhdidlərin aradan qaldırılmasına yönəlik bir sıra tədbirləri əhatə edir. Sənədin müəllifləri Rusiyanı terrorizmi dəstəkləyən dövlət saymağı və bu ölkəyə qarşı misli görünməmiş sərt sanksiyalar tətbiq etməyi lazım bilirlər. Söhbət, ilk növbədə, Rusiyanın xüsusi neft və qaz layihələrini dəstəkləyən şirkətlərə qarşı təkrar sanksiyaların tətbiqindən gedir. Bundan əlavə, Rusiya hakimiyyət orqanlarından yan keçməklə Rusiya xalqına birbaşa müraciət etmək və onun demokratiya istiqamətində səylərini dəstəkləmək strategiyası hazırlamaq təklif olunur.

Hesabatda uyğurların təqibə məruz qalmasına və Honq Konqda etiraz aksiyalarının yatırılmasına görə Çin Kommunist Partiyası rəhbərliyinin üzvlərinə qarşı sanksiyaların tətbiq olunması ideyası yer alır. İrana gəlincə, burada milli iqtisadiyyatın bəzi sahələrinə, habelə İranla əlaqəli regional qurumlara, xüsusən Tehranın ölkə xaricində dəstəklədiyi silahlı qruplara qarşı sanksiyalar tətbiq edilməsi təklif olunur.

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - “Aztelekom” MMC-nin Bakı şəhəri və bölgələr üzrə xidməti ərazilərində istismarda olan kondisionerlərə texniki xidmət və təmir işlərinin satın alınması

İştirak haqqı: 200 manat

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını “ASAN ödəniş” sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 07 iyul 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 15 iyul 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 16 iyul 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı kotirovka sorğusu elan edir

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış darvazalar üçün avtomatik qolların satın alınması.

Kotirovka sorğusu üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 30 iyun 2020-ci il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 01 iyul 2020-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elnur Musayev, telefon - 493-11-22 (daxili 490).

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 04 və 07 mart 2020-ci il tarixli saylarında dərc edilmiş və Dövlət satınalmalarının vahid internet portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) İnformasiya texnologiyaları avadanlıqlarının və ehtiyat hissələrinin, Cisco IT avadanlıqlarına (SMARTNET) istehsalçı zəmanətlərinin 1 (bir) il müddətinə uzadılması xidmətinin və ehtiyat hissələrinin satın alınması üzrə “R.İ.S.K. Elmi İstehsalat Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti qalib olmuşdur.

Qalib şirkətlə 10 iyun 2020-ci ildə hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 15.02.2020-ci il tarixli sayında dərc edilmiş “Matrix printerləri üçün lentlərin satın alınması” prosedurunun qalibi “CUBE” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “CUBE” MMC arasında 09.06.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 28.12.2019-cu il tarixli sayında dərc edilmiş “Elektrik mallarının satın alınması” prosedurunun qalibi “Buta Supply” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “Buta Supply” MMC arasında 09.06.2020-ci il tarixində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 18.02.2020-ci il tarixli sayında dərc edilmiş “Printer avadanlıqlarının satın alınması” prosedurunun qalibi “Caspian Supplies AZE” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “Caspian Supplies AZE” MMC arasında 09.06.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Ağstafa Rayon İcra Hakimiyyəti 2020-ci il üçün

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Ağstafa rayonunda aztəminatlı ailələrin mənzil şəraitlərinin yaxşılaşdırılması üçün tikinti materiallarının satın alınması

İştirak haqqı - 100 manat.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatları əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar öz tender təkliflərində bütün vergi rüsumları və digər xərclərini nəzərə almalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Mustafayev Sənan (2222 51205)**
**Ünvan: Ağstafa şəhəri, H.Arif küçəsi 3**
**Bank rekvizitləri:**
**Ağstafa Rayon İcra Hakimiyyəti**
**VÖEN: 3600071061**
**Ağstafa YXO: AZ85AIIB32051019445200201152**
**VÖEN: 3600068011**
**“Kapital Bank”ın Ağstafa filialı**
**Kodu: 200521**
**VÖEN: 9900003611**
**M/h: AZ 37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK - AIIBAZ 2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlər **02.07.2020-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **13.07.2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **13.07.2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

E-şərtlər toplusunu **10.04.2020-ci il** tarixdən sonra əldə etmək olar.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİS MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRACECA) üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan üzrə milli katibi

**AKİF MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Şahin İsgəndərova atası

**BƏBİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Şahin İsgəndərova atası

**BƏBİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRACECA) üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan üzrə milli katibi

**AKİF MUSTAFAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Aytən Abbasovaya atası

**ŞAHİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Aqrarkredit” Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Fatma Heydərovaya bacısı

**DÜRDANƏ MİRZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Emin Mehdiyevə qayınatası

**ALLAHVERƏN CƏBRAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Təkrar*

## “Azərişıq” ASC Ağdam rayonu, Əfətli, Küdürlü, Hacıməmmədli, İsalar, Hacıturalı, Qəhrəmanbəyli, Həsənxanlı, Məmmədbağırlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 25/63/100/160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. Ağdam rayonu, Əfətli, Küdürlü, Hacıməmmədli, İsalar, Hacıturalı, Qəhrəmanbəyli, Həsənxanlı, Məmmədbağırlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 25/63/100/160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması İştirak haqqı: 400 manat

**“Azərişıq” ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşət Ağayev (telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **03 iyul 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **13 iyul 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 iyul 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7407
Sifariş 1488
Qiyməti 40 qəpik